Günəş Şərqdən doğur!

№ 11 (5292), 2021-ci il

# ŞƏRQ

Qiymət 40 qəpik

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az

20 yanvar 2021-ci il (çərşənbə)




**Daha 949 nəfər koronavirusdan sağalıb**

305 nəfər yoluxub, 10 nəfər vəfat edib

Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 305 yeni yoluxma faktı qeydə alınıb, 949 nəfər müalicə olunaraq sağalıb.

(Səh.8)

**Uzunluğu 101 kilometrdir**



Şuşaya çəkilən "Zəfər yolu" sentyabr ayınadək istifadəyə veriləcək

(Səh.10)

**Günün içindən...**



## "Böyük qayıdış proqramı hazırlanır"

Prezident İlham Əliyev: "Lap yaxın vaxtlarda biz hamımız dirçəldilmiş şəhərləri görəcəyik"

**"Bu çətin vaxtda mənəvi-siyasi dəstək bizim xalqımız üçün olduqca vacibdir".**

Bu fikirləri Prezident İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi Bağdad Amreyevi videoformatda qəbul edərkən söyləyib.

(səh.2)

## İşğaldan azad edilmiş ərazilərdə Prezidentin xüsusi nümayəndəlikləri təsis edilib



(səh.3)

# Türk Şurası icazə istədi




## 2022-ci ildə Şuşada 20-yə yaxın tədbir keçirilə bilər

"Ölkələrimiz arasında ilkin danışıqlar bizim ölkələrimizin və xalqlarımızın Azərbaycana kömək etmək əzminin çox möhkəm olmasını göstərdi. Biz hər il türk dünyasının mədəni paytaxtını elan edirik. 2022-ci ildə Şuşanın belə paytaxt elan olunmasını və mədəni xarakterli çoxlu tədbirlər keçirilməsini təklif edirik".

(səh.4)

# Heç vaxt unutmayacağıq

## Xalqımızın azadlığa gedən yolunun memarı 20 Yanvar şəhidləridir

(səh.6)



**Qarabağın Azərbaycanlı İcması yaxın gələcəkdə Şuşaya köçürüləcək**

"Orada yaratmaq, qurmaq və bərpa işləri ilə məşğul olmağa tam hazırıq" (səh.2)

**"Şərtlər dəyişəcək"**

Volkan Aydemir: "Rus əsgərlərinin mühafizəsində olan ermənilərin "şıltaqlıqlarına" son qoyulacaq" (səh.7)

**Vətəndaşlar xiyabana beş nəfərlik qruplarla daxil olacaq**

Şəhidlər Xiyabanını ziyarət əvvəlki illərdən fərqli təşkil ediləcək

(səh.5)

**Deputatlar işğaldan azad edilən ərazilərə gedəcək**

Şəhidlərin ailələrinin ziyarət edilməsi, qazilərlə görüşlər keçirməsi də iş planına daxil edilib

(səh.4)



## "General Mais Bərxudarovun sözü onu Şuşaya aparıb"

"Gəncədən çıxırdım, zəng gəldi ki, qardaşın Şuşada yaralanıb"

(səh.8)



## "Şuşanın havasındandır..."

Bəyimxanım Cavanşir-Verdiyeva: "Görürsüz, şəhərə ayaq basan əsgərlərimizin hamısı oxuyurdu"

(səh.9)

# "Böyük qayıdış proqramı hazırlanır"





## Prezident İlham Əliyev: "Lap yaxın vaxtlarda biz hamımız dirçəldilmiş şəhərləri görəcəyik"

"Bu çətin vaxtda mənəvi-siyasi dəstək bizim xalqımız üçün olduqca vacibdir". Bu fikirləri Prezident İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi Bağdad Amreyevi videoformatda qəbul edərkən söyləyib. Dövlət başçısı vurğulayıb ki, işğaldan azad edilmiş torpaqlarda quruculuq işlərinə yalnız dost ölkələrdən olan şirkətlər cəlb ediləcək:

"Dünyada belə ölkələr çoxdur, lakin onların arasında elə ölkələr var ki, müharibə dövründə və müharibədən sonrakı dövrdə Azərbaycanı fəal dəstəkləyiblər. Əlbəttə, bu mövzu Türk Şurası çərçivəsində müzakirə ediləcək. Biz baş verənləri təhlil edəcəyik və gələcək üçün planlar quracağıq. Lakin artıq əminliklə deyə bilərəm ki, ərazilərin bərpası prosesi də bizə qardaş olan ölkələr tərəfindən dəstəklənəcək".

**"Türk Şurası müharibə dövründə bizi hamıdan çox dəstəkləyən təşkilatdır"**

**Prezident bildirib ki, Türk Şurası müharibə dövründə bizi hamıdan çox dəstəkləyən təşkilatdır:** "Müharibənin lap əvvəlində siz Azərbaycanı dəstəkləyən, ölkəmizin ərazi bütövlüyünü və suverenliyini, onun sərhədlərinin toxunulmazlığını dəstəkləyən bəyanat vermisiniz. Həmçinin bəyan etmisiniz ki, münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində nizamlanmalıdır. Bu, müharibənin praktiki olaraq ikinci günü idi. Oktyabrın 20-də siz Gəncə şəhərinin ballistik raketlərlə bombalanmasını pisləyən bəyanatla çıxış etdiniz, Azərbaycan xalqına başsağlığı verdiniz. Daha sonra, oktyabrın sonunda siz münaqişənin BMT Təhlükəsizlik Şurasının qətnamələri çərçivəsində nizamlanmasının zəruri olması barədə bəyanatla çıxış etdiniz, Ermənistan tərəfindən Cenevrə konvensiyalarının pozulması barədə danışdınız. Siz mənə noyabrın əvvəlində məktubla müraciət etdiniz, ayın 2-də isə sizinlə Bakıda görüşdük və siz Azərbaycanı dəstəklədiyinizi bir daha bildirdiniz. 44 gün ərzində dörd dəfə Türk Şurasının Baş katibi adından rəsmi bəyanat verildi. Türk Şurası müharibə dövründə bizi hamıdan çox dəstəkləyən təşkilatdır".

**"Bu, barbarlıqdır, bu, mədəni soyqırımdır və buna heç cür haqq qazandırmaq olmaz"**

**Dövlət başçısı qeyd edib ki, lap yaxın vaxtlarda biz hamımız dirçəldilmiş şəhərləri görəcəyik:** "Kəlbəcər, Laçın rayonlarında həm Ermənistan vətəndaşlarının, həm də əsasən diasspordan olan ermənilərin süni şəkildə məskunlaşdırılması aparılıb. Noyabrın 10-da imzalanmış bəyanata müvafiq olaraq, işğalçılar həmin əraziləri tərk edəndə özlərinin tikmədiyi, qanunsuz olaraq soxulduqları evləri yandırır, meşələri qırır, bütün infrastrukturu məhv edirdilər. Laçın və Kəlbəcər rayonlarında 10-dan çox su elektrik stansiyası vardı, onlar hamısı dağıdılıb, yəni bu, barbarlıqdır. Bu, misli görünməmiş vandallıqdır. Elə bil bu ərazilərdən vəhşi qəbilə keçib. Şuşa şəhərinə gəldikdə isə onun indiki vəziyyətinə heç kim laqeyd qala bilməz, çünki bu nadir və bənzərsiz şəhər Qafqazın incisidir. Fikrimcə, nəinki bizim regionda, dünyada onun bənzəri yoxdur. Şəhər tamamilə boşalıb, məscidlər dağıdılıb, tarix və mədəniyyət abidələri, Vaqifin məqbərəsi dağıdılıb, məzar daşı sındırılıb, Vaqifin barelyefi qırılıb, büstü məhv edilib. Natəvanın sarayı dağıdılıb, Bülbülün evi praktiki olaraq yarıdağıdılmış vəziyyətdədir, Üzeyir Hacıbəylinin evi isə artıq yoxdur, onun yalnız divarları qalıb. Bu, barbarlıqdır, bu, mədəni soyqırımdır və buna heç cür haqq qazandırmaq olmaz".

Azərbaycanın qələbə qazandığını diqqətə satdıran Prezident deyib ki, hər şəhərdə bir məhəllə, ola bilsin, böyük bir ərazi olduğu kimi saxlanacaq ki, Azərbaycan xalqı bunu heç vaxt unutmasın: "Gələcək nəsillər yadda saxlasınlar ki, biz öz torpağımızı qorumalıyıq və yalnız öz gücümüzə güvənməliyik. Əlbəttə, biz işğal edilmiş ərazilərdə dağıdılanların hamısını bərpa edəcəyik, bərpa prosesi başlanıb. Fikrimcə, bizim atdığımız ilk addımların nəticələri lap yaxın vaxtlarda görünəcək. Böyük qayıdış proqramı hazırlanır. Zənnimcə, lap yaxın vaxtlarda biz hamımız dirçəldilmiş şəhərləri görəcəyik".

**"TÜRKSOY-un fəal "dəstəyinə ümid edirəm və buna əminəm"**

**Ölkə rəhbəri tarix və mədəniyyət abidələrinin bərpasında TÜRKSOY-un fəal dəstəyinə ümid etdiyini söyləyib:** "Azad edilmiş ərazilərdə 70-ə yaxın məscid dağıdılıb, muzeylər qarət edilib, bütün sosial infrastruktur məhv edilib. Siz yəqin ki, Ağdamda Dram Teatrının qalan divarını görmüsünüz. Görünür, sadəcə, dağıtmaqdan yorulublar. Yəqin, sadəcə, daha gücləri çatmayıb. Buna görə də düşünürəm ki, işğalçı qüvvələrin barbarlığını, məhz bizim mədəni-tarixi irsin məhv edilməsini dünya ictimaiyyətinə çatdırmaq, həmçinin bizim tarixi-mədəni abidələrin bərpa edilməsində bizə kömək də TÜRKSOY-un diqqət mərkəzində olacaq". Prezident qeyd edib ki, Şuşa bərpa ediləndən sonra öz təbiətinə, landşaftına, tarixinə, tarixi abidələrinə görə bütün regionun mədəni paytaxtına çevrilə bilər. "Əlbəttə, ümid edirəm ki, siz bizə növbəti gəlişinizdə Şuşaya səfər edəcəksiniz. İndi biz artıq oraya yol çəkirik. Lap yaxın vaxtlarda, bu il beynəlxalq aeroport açılacaq. Buna görə də Şuşa hələ çox beynəlxalq tədbirlər görəcək, bütün tarix boyu olduğu kimi, öz dostlarını, qardaşlarını qəbul edəcək".

**"XX əsrdə belə barbarlıq, şəhərlərin və kəndlərin qəsdən məhv edilməsi görünməyib"**

**Prezident vurğulayıb ki, XX əsrdə belə barbarlıq, şəhərlərin və kəndlərin qəsdən məhv edilməsi görünməyib:** "Siz Ağdamda və Füzulidə olmusunuz, işğalçı qüvvələrin bizim şəhərləri viran qoyduğunu özünüz görmüsünüz. Vaxtilə Qarabağın çiçəklənən, on minlərlə insanın yaşadığı Ağdam və Füzuli şəhərləri tamamilə dağıdılıb. Füzulidə bircə salamat bina yoxdur. Ağdamda da bütün binalar sökülüb, yalnız qismən dağıdılmış məscid qalıb". Xarici jurnalistlərin Ağdamı "Qafqazın Xirosiması" adlandırdığını diqqətə çatdıran dövlətimizin başçısı deyib ki, eyni sözləri Füzuli şəhəri, həmçinin işğal altında olmuş başqa şəhərlər haqqında da demək olar: "Zəngilan da, Cəbrayıl da, Qubadlı da praktiki olaraq tamamilə dağıdılıb. Təkcə şəhərlər yox, kəndlər də. Siz Füzuliyə, Ağdama gedəndə yol boyunca yəqin ki, tamamilə dağıdılmış kəndləri görmüsünüz. Bütün bu dağıntılar Birinci Qarabağ müharibəsi başa çatandan sonra törədilib, məhz bu ərazilərdə Azərbaycanın mədəni irsinin izlərini məhv etmək üçün. Həm də ondan ötrü ki, azərbaycanlıların bu ərazilərə qayıtmalarına heç vaxt imkan verməmək üçün, eləcə də sırf oğurluq, qarət üçün". *Prezident qeyd edib ki, işğal olunmuş bəzi ərazilərdə süni məskunlaşdırma siyasəti aparılırdı. Bu, Cenevrə konvensiyalarının ən kobud şəkildə pozulması və hərbi cinayətdir:* "Özü də, işğalın ilk illərində Ermənistanın əvvəlki hakimiyyəti bu faktları gizlədirdisə, indiki hakimiyyət bununla fəxr edir, internetdə və özünün kütləvi informasiya vasitələrində Yaxın Şərqin digər dövlətlərinin erməni milləttindən olan vətəndaşlarının buraya gəlməsi, Şuşada və digər şəhərlərdə məskunlaşması barədə videoçarxları nümayişkaranə şəkildə dərc edir, bununla da həm beynəlxalq hüquq normalarına, həm də insani əxlaq normalarına tam etinasızlıq göstərirdi".

**İsmayıl**

## Qarabağ Dirçəliş Fondunun strukturu təsdiqləndi

### Nizamnamə fondu 1 milyon manatdır

**Prezident İlham Əliyev Qarabağ Dirçəliş Fondunun fəaliyyətinin təmin edilməsi haqqında fərman imzalayıb.**

Fərmana əsasən Qarabağ Dirçəliş Fondunun Nnizamnaməsi və strukturu" təsdiq edilir.

Müəyyən edilir ki, Qarabağ Dirçəliş Fondunun (bundan sonra - Fond) nizamnamə fondu 1 (bir) milyon manatdır və dövlət büdcəsinin vəsaiti hesabına formalaşdırılır.

Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll edəcək.

Fonda tapşırılır ki, əməyin ödənişi fondunu, işçilərinin say həddini və əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğini bir ay müddətində təsdiq etsin; bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

Maliyyə Nazirliyinə bu Fərmanın 3-cü hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etmək tapşırılır.

## Qarabağın Azərbaycanlı İcması yaxın gələcəkdə Şuşaya köçürüləcək

### "Orada yaratmaq, qurmaq və bərpa işləri ilə məşğul olmağa tam hazırıq"



**"Dağlıq Qarabağın Azərbaycanlı İcması İctimai Birliyinin yaxın gələcəkdə Şuşaya köçürülməsini planlaşdırırıq".**

Bunu APA-ya açıqlamasında icmanın sədri, Milli Məclisin deputatı Tural Gəncəliyev deyib.

İcma sədri bildirib ki, Qarabağdan məcburi köçkün düşmüş insanlar olaraq artıq geriyə dönmək planlarını dəqiqləşdirdiklərini bildirib: "Hətta hamımız özümüzün yaxın gələcək fəaliyyətimizi Şuşada, işğaldan azad edilmiş digər qəsəbələrdə, kəndlərdə görürük. Tez bir zamanda mümkün olduğu təqdirdə artıq biz fəaliyyətimizi bilavasitə Qarabağ bölgəsində davam etdirəcəyik".

Tural Gəncəliyev Qarabağ Dirçəliş Fondunun üzvü kimi də bəzi məsələlərə aydınlıq gətirib: "Artıq bu fond çərçivəsində apardığımız müzakirələrin bəzi nəticələri məlumdur. İlkin olaraq, təhlükəsizlik məsələlərin həlli, ikinci infrastruktur, nəqliyyat və digər təşkilatı məsələlərin həllindən sonrakı mərhələ artıq insanların geri dönməsidir. Bu proses sosial və digər xidmətlərin təşkili, təhsil müəssisələrinin açılması ilə paralel aparılacaq. Yaxın gələcək üçün fəaliyyətimizi yalnız Qarabağda görürük. Ora dönməliyik. Orada yaratmaq, qurmaq və bərpa işləri ilə məşğul olmağa tam hazırıq".

## Erməni jurnalist yazdı

### "Ermənistan vətəndaşları Qarabağdakı zənginlər uğrunda ölməməlidir"

**Ermənistan Respublikasının vətəndaşları bir daha Qarabağdakı zənginlər uğrunda ölməməlidir.**

Trend-in məlumatına görə, bu barədə erməni jurnalist Roman Baqdasaryan öz "Facebook" səhifəsində yazıb.

**Jurnalist deyib:** "Bir daha müharibə olmasın! Ermənistan Respublikasının vətəndaşları bir daha Qarabağdakı zənginlərin uğrunda ölməməlidir. Uşaqları rahat buraxın".

# Korrupsiya ilə mübarizə asanlaşıb

## Artıq xalq-iqtidar birliyi, rəhbər-cəmiyyət həmrəyliyi çox güclüdür



Məhərrəm Zülfüqarlı: "Prezidentin komandasında xeyli gənc kadrlar var. Gənclər keçmiş dövrün zərərli psixologiyasından uzaqdır"

**Prezident İlham Əliyev Azərbaycan Televiziyasına müsahibəsində növbəti dəfə qanunsuz fəaliyyətlə məşğul olan, etimadı doğrultmayan məmurlara, yüksək vəzifə sahiblərinə xəbərdarlıq edib. Dövlət başçısı bildirib ki, ölkənin müxtəlif yerlərində bəzi xoşagəlməz hallar məhz nəzarətsizlik ucbatından baş verir. Ölkə rəhbəri vurğulayıb ki, bəzi yerlərdə torpaqlar zəbt edilir, insanların əlindən alınır və qeyri-ədalətli şəkildə bölünür:**

"O cümlədən, su resursları qeyri-ədalətli şəkildə bölünür, bəzilərinə su çatır, bəzilərinə su çatmır. Biz özümüzü bu qüsurlardan təmizləməliyik və təmizləyirik. Təmizləmə prosesi gedir və gedəcək. Hər kəs bunu bilsin. Heç kim hesab etməsin ki, onun hansısa xüsusi imtiyazı var. Yaxud da ki, kimsə özünü toxunulmaz hesab etməsin".

Xatırladaq ki, son illər ərzində dövlət başçısının birbaşa rəhbərliyi və nəzarəti ilə ölkədə neqativ əməllər törədən məmurlara, korrupsioner vəzifə sahiblərinə qarşı çoxsaylı əməliyyatlar keçirilib. Paytaxtda və ölkənin müxtəlif bölgələrində rüşvətlə vətəndaşları bezdirən, kasıb-kusubun malına göz dikən, harınlıq edən bəzi icra başçıları, məmurlar vəzifədən uzaqlaşdırılaraq cinayət məsuliyyətinə cəlb olunublar. Dövlət başçısı müsahibəsində təmizləmə işinin sonadək davam edəcəyinin anonsunu verdi.

**Prezidentin diqqət çəkdiyi məqamı "Şərq"ə dəyərləndirən professor Məhərrəm Zülfüqarlı deyib ki, Prezident İlham Əliyev 2003-cü ildən Azərbaycana rəhbərlik edir. Ekspertin sözlərinə görə, 17 il ərzində ölkə başçısı daim korrupsiyaya qarşı mübarizə aparıb. Lakin əfsuslar olsun ki, bizdə rüşvətin kökünü kəsmək mümkün olmayıb:** "Azərbaycan sovet rejimindən çıxıb. Sovet vaxtı korrupsiya baş alıb gedirdi. Ali məktəblərə qəbulu ona görə test üsuluna keçirtdilər ki, savadsız uşaqlar rüşvət verərək universitetlərə qəbul olurdular. Bilikli gənclər isə kənarda qalırdı. Ötən müddət ərzində korrupsiyaya qarşı mühüm addımlar atılıb, tədbirlər görülüb. Son dövrlərdə mübarizə daha da gücləndirilib və miqyası genişləndirilib. 44 günlük Vətən müharibəsindən sonra cənab Prezidentin, Ali Baş Komandanın reytinqi həm regionda, həm də dünyada həddindən ziyadə yüksəldi. Prezidentimiz dünyada ən reytinqli liderlərdən biridir. Ölkə rəhbəri bunu öz fəaliyyəti ilə sübuta yetirib. Ancaq çox təəssüflər olsun ki, bir sıra məmurlar Prezidentimizə layiq deyil. Əvvəlki sistemə öyrəşmiş köhnə təfəkkürlü məmurlar yeniləşə, müasirliyə ayaq uydura bilmirlər. Torpaq sahələrini satmaq, qəsb eləmək, rüşvət almaq, özbaşınalığa yol vermək, insanların haqqını tapdalamaq onlar üçün adi vərdişə çevrilib. Sovet rejimində olduğu kimi Allahsız ideologiyanın təsirindən çıxa bilmirlər. Əlbəttə, belə məmurlardan tezliklə xilas olmaq şərtdir. Görürsüz, Prezidentin komandasında xeyli gənc kadrlar var. Gənclər keçmiş dövrün zərərli psixologiyasından uzaqdır".

*M.Zülfüqarlı vurğulayıb ki, korrupsiyaya bulaşmamış, intellektual gənclərin yeni vəzifələrə təyin olunması sevindirici haldır:* "Təbii ki, mən korrupsioner ailədə böyümüş gənclərdən danışmıram. Onlar ailədə necə "tərbiyə" görübsə, o cür davam edəcəklər. Korrupsiya qlobal problemdir və biz də dünyanın bir parçası kimi rüşvət faktoru ilə mübrizə aparırıq. Dövlət başçısı məmurlara mesaj verdi ki, artıq xalq-iqtidar birliyi, rəhbər-cəmiyyət həmrəyliyi çox güclüdür. Korrupsiyaya qarşı mübarizədə bu amil əsas rol oynayır. İndi elə bir dövrdür ki, heç kimin neqativ əməli gizli qalmır. Kimsə hardasa rüşvət alan kimi görüntülər sosial şəbəkədə yayılır. Neqativ əməllər törədən məmurların ifşası çox asanlaşıb".

Ekspert bəyan edib ki, islahatlar, xüsusən kadr dəyişiklikləri bundan sonra da davam edəcək: "İşğaldan azad edilmiş ərazilərimizdə dövlət işlərinə milli kadrlar təyinat almalıdır. Vətən və bayraq hissi güclü olan şəxslər idarəetmədə önə çəkilməlidir. İnanmıram ki, milli ruhlu insan rüşvətə bulaşsın. Çünki onlar fərqindədir ki, Vətən torpaqları şəhidlərimizin, qazilərimizin qanı, canı bahasına düşməndən azad edilib. Rüşvətxor məmur isə öz var-dövlətindən ötrü Vətəni də satar, torpağı da".

**İsmayıl Qocayev**



# İşğaldan azad edilmiş ərazilərdə Prezidentin xüsusi nümayəndəlikləri təsis edilib

**Azərbaycan Respublikası Prezidenti İlham Əliyev İşğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndələri haqqında fərman imzayıb.**

Fərmana əsasən, işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəlikləri təsis edilib.

Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliklərinə Azərbaycan Respublikası Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən və birbaşa Azərbaycan Respublikasının Prezidentinə tabe olan Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndələri (bundan sonra - xüsusi nümayəndə) rəhbərlik edirlər.

Müəyyən edilib ki:

- xüsusi nümayəndə Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi ərazi hüdudlarında Azərbaycan Respublikasının Prezidentini təmsil edən vəzifəli şəxsdir;

- xüsusi nümayəndə Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi ərazi hüdudlarında Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi səlahiyyətləri həyata keçirir.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəlikləri haqqında əsasnamənin layihəsini və xüsusi nümayəndəliklərin fəaliyyətinin təşkilinə dair təkliflərini on beş gün müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etməlidir.

Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etməlidir.

# Qarşımızda yeni imkanlar açılır

## "Ölkə başçısı hər zaman məmurlara ictimai nəzarətin gücləndirilməsi ilə bağlı çağırışlar edib"

Prezident İlham Əliyev Azərbaycan Televiziyasına müsahibəsində qeyd edib ki, ölkəmizin inkişafı üçün yeni bir dövr başlayıb: "Biz azad edilmiş torpaqlara qayıdaraq, o torpaqların potensialından istifadə edəcəyik. Orada çox böyük potensial - bərpaolunan enerji növləri, qiymətli təbii sərvətlər, qızıl yataqları, mis yataqları, çaylar, su anbarları, kənd təsərrüfatı üçün münbit torpaq, turizm imkanları var. Yəni bu bölgələr bir çoxlarının fikrinə görə, növbəti inkişafımızın aparıcı qüvvəsinə çevriləcək".

Ölkə başçısının sözlərinə görə, əfsuslar olsun ki, ölkəmizin müxtəlif yerlərində bəzi xoşagəlməz hallar məhz nəzarətsizlik ucbatından baş verir: "Bəzi yerlərdə torpaqlar zəbt edilir, insanların əlindən alınır, qeyri-ədalətli şəkildə bölünür. O cümlədən su resursları qeyri-ədalətli şəkildə bölünür, bəzilərinə su çatır, bəzilərinə su çatmır. Bütün bunlar bizə yaraşmır. Biz özümüzü bu qüsurlardan təmizləməliyik və təmizləyirik. Təmizləmə prosesi gedir və gedəcək. Hər kəs bunu bilsin. Heç kim hesab etməsin ki, onun hansısa xüsusi imtiyazı var".





**Prezidentin çıxışını "Şərq"ə dəyərləndirən Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun (MQF) prezidenti Rauf Zeyni bildirib ki, ölkə başçısı hər zaman məmurlara ictimai nəzarətin gücləndirilməsi ilə bağlı çağırışlar edib:** "Cənab Prezident dəfələrlə qeyd edib ki, bütün cəmiyyət inkişafla yanaşı ictimai nəzarəti və şəffaflığı təmin etməlidir. Hər birimiz bu çağırışlara dəstək vermişik. MQF olaraq bütün fəaliyyətimizdə ictimai nəzarətin və şəffaflığın gücləndirilməsi istiqamətində işlər görürük".

*R.Zeyni vurğulayıb ki, cəmiyyətimizdə baş verən neqativ hallar məmur özbaşınalığından irəli gəlir:*

"Vətəndaş cəmiyyətinin güclənməsi, yerli və icra hakimiyyəti orqanlarında ictimai şuraların fəaliyyətinin yaradılması üçün vətəndaşın tələblərinə uyğun şəkildə işlər görülməlidir. Ölkə başçısı hər zaman deyir ki, fəaliyyətimizin mərkəzində vətəndaş dayanır. Onların mənafelərinin müdafiə olunması üçün dövlət qərarlarının qəbul olunmasında ictimai iştirakçılıq yüksək səviyyədə olmalıdır.

2014-cü il iyunun 1-dən "İctimai iştirakçılıq haqqında" Qanun qüvvəyə minib. Lakin hələ 11 qurumda ictimai şuralar yaranıb. Bütün dövlət qurumlarında, yerli və mərkəzi icra hakimiyyəti orqanlarında qanunun tələblərinə uyğun olaraq ictimai şuralar yaradılmalıdır.

Prezidentin köməkçisi Hikmət Hacıyevin bununla bağlı həm QHT-lər, həm də yerli və mərkəzi icra hakimiyyəti orqanlarının nümayəndələri ilə görüşləri olub. İnanıram ki, bu fəaliyyətlərin hər biri yaxın gələcəkdə böyük effekt verəcək.

Beləliklə, qarşımıza qoyduğumuz məqsədləri yerinə yetirmək üçün böyük imkanlar qazanacağıq".

**Yeganə Bayramova**

# "Mən də Vətənimin müdafiəsi uğrunda xidmət edəcəyimə and içirəm"

## 7 yaşlı məktəbli Prezidentin çıxışlarından və Qələbə müjdələrindən ruhlanıb

**Azərbaycan vətəndaşları Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə minnətdarlıq məktubları göndərməkdə davam edirlər. Onlar Vətən müharibəsində qazandığımız tarixi Qələbəni böyük sevinc və qürur hissləri ilə qarşıladıqlarını bildirir, dövlətimizin başçısına təşəkkür edirlər. Həmin məktubların bəzilərini təqdim edirik:**

**Bərdə rayonu, Hacallı kəndindən Əli İsmayılov:** Cənab Prezident, Müzəffər Ali Baş Komandan! Mən Sizin Şuşada olduğunuz çəkilişə baxdım və həqiqətən ürəkdən çox sevindim. Mən bir azərbaycanlı kimi Sizinlə fəxr edirəm. Mən çox xoşbəxt bir insanam ki, Sizin idarə etdiyiniz ölkənin vətəndaşıyam. Allah Sizi hər zaman qorusun!

**Bakı şəhərindən Solmaz Axundova:** Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan, xalq qəhrəmanımız, fəxrimiz İlham Əliyev, Sizin uğurlarınıza ürəkdən sevinir, Sizinlə fəxr edirəm. Allah hər yerdə - xalqımız arasında, dünya dövlətləri yanında başınızı uca etsin. Sizi Qarabağ torpaqlarının işğaldan azad edilməsi - Qələbə, Zəfər günü münasibətilə təbrik edir, Sizə sağlam can, xeyirli ömür, həyatda güclü olmağı arzu edirəm. Allahdan şirin payımız - əziz Prezidentimiz, Azərbaycan Sizə yaraşır, Siz də Azərbaycana!

**Ağstafa rayonu, Eynallı kəndindən Rəhim Tağıyev:** Hörmətli Prezident, Müzəffər Ali Baş Komandan! Sizin uğurlu siyasətiniz və qüdrətli Ordumuzun şücaəti sayəsində doğma torpaqlarımızın işğaldan azad edilməsi bizləri çox sevindirdi, qürurlandırdı. Bu böyük qələbə sevincini bizlərə yaşatdığınız üçün doğmalarım və şəxsən öz adımdan Sizə dərin minnətdarlığımı bildirirəm. Siz ölkəmizin tarixinə adınızı qızıl hərflərlə yazdırdınız. Ulu Öndərin layiqli davamçısı kimi sayənizdə Vətənimiz Azərbaycan günü-gündən çiçəklənir və inkişaf edir. Xalqımız firavan və azad yaşayır. Mənim 82 yaşım var. Təhsilli və savadlı bir insanam. Hazırda təqaüddəyəm. Qazandığınız şanlı zəfərə görə ürək sözlərimi Sizinlə bölüşmək istədim və bunu özümə



borc bilirəm. Sizinlə fəxr edirəm. Mənə və xalqımıza bu gözəl günləri bəxş etdiyiniz üçün Sizə sonsuz təşəkkürlərimi bildirirəm. Ulu Öndərimizin ruhu şaddır, çünki Azərbaycan artıq öz ərazi bütövlüyünü bərpa etmişdir.

**Sabirabad şəhərindən Hikmət Həsənov:** Müzəffər Ali Baş Komandan! Mən Sabirabad rayon Mirzə Ələkbər Sabir adına 1 saylı tam orta məktəbdə oxuyuram. Uzun illərdir işğal altında olan doğma torpaqlarımız Sizin müdrik siyasətiniz və müzəffər Ordumuzun qəhrəmanlığı ilə azad olundu. Vətən uğrunda gedən döyüşlərdə mənim dayım Rəşad Rəhimov da iştirak etmişdir. Həmişə evimizdə Sizin müsahibələriniz və çıxışlarınız böyük qururla izlənilib. Hərbi parad zamanı Azərbaycanın hərbi texnikasını, əsgər və zabit heyətini gördük və çox fərəhləndik. Cənab Prezident, mən böyüyəndə Hərbi Aviasiya Akademiyasında oxumaq və Vətənimin müdafiəsi uğrunda xidmət etmək arzusundayam. Sizə möhkəm cansağlığı, uzun ömür, qarşıdakı yorulmaz fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

**Ağcabədi rayonu, Qaraxanlı kəndindən Cəsur Ələkbərov:** Hörmətli İlham baba, bu məktubu Sizə yazan 11 yaşlı Cəsur Ələkbərovdur. Mən Ağcabədi rayonunun Qaraxanlı kənd tam orta məktəbinin 6-cı sinif şagirdiyəm. Mən ailəmdə və Sizdə Vətənə qarşı olan məhəbbəti görüb böyüyəndə gələcəyin bir əsgəri və zabiti kimi Vətənimin, dövlətimin və xalqımın müdafiəsi uğrunda xidmət edəcəyimi bildirir və and içirəm.

**Aynurə Pənahqızı**

# Türk Şurası icazə istədi

## 2022-ci ildə Şuşada 20-yə yaxın tədbir keçirilə bilər



**"Ölkələrimiz arasında ilkin danışıqlar bizim ölkələrimizin və xalqlarımızın Azərbaycana kömək etmək əzminin çox möhkəm olmasını göstərdi. Biz hər il türk dünyasının mədəni paytaxtını elan edirik. 2022-ci ildə Şuşanın belə paytaxt elan olunmasını və mədəni xarakterli çoxlu tədbirlər keçirilməsini təklif edirik".**

Bunu Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi Bağdad Amreyev yanvarın 19-da Azərbaycan Prezidenti İlham Əliyevin videoformatda qəbulunda olarkən deyib.

"Bu tədbirlər Şuşanın bütün türk və İslam dünyası üçün böyük mədəni əhəmiyyətini vurğulayar. Dünən biz bu məsələni xarici işlər naziri cənab Bayramovla da müzakirə etdik. Siz icazə versəniz, biz bu işə başlayarıq, 2022-ci ildə Şuşada 20-yə yaxın mədəni tədbir keçirərik. Əminik ki, o vaxta qədər Şuşa bərpa olunacaq, öz əvvəlki simasını alacaq. Biz həmişə Sizin yanınızda olmuşuq və həmişə Sizin yanınızda olacağıq", - o bildirib.

# Deputatlar işğaldan azad edilən ərazilərə gedəcək

## Şəhidlərin ailələrinin ziyarət edilməsi, qazilərlə görüşlər keçirməsi də iş planına daxil edilib



**Deputatlar işğaldan azad olan torpaqlarda yaranmış vəziyyətlə tanış olacaq, həmin ərazilərdə aqrar sahənin inkişafı üçün vacib məsələləri müzakirə edəcək.**

"Report"un xəbərinə görə, bu barədə məsələ Milli Məclisin Aqrar siyasət komitəsinin 2021-ci il yaz sessiyası üçün iş planında əksini tapıb.

Eyni zamanda komitə üzvlərinin Vətən müharibəsi şəhidlərinin ailələrini ziyarət etməsi, qazilər, müharibə iştirakçıları ilə görüşlər keçirməsi iş planına daxil edilib.

# Sabir Rüstəmxanlıya dəstək gəldi

## Sosial şəbəkələrdə türk soylu millətlərin çevrəsini genişləndirməliyik

**Millət vəkili, Vətəndaş Həmrəyliyi Partiyasının sədri Sabir Rüstəmxanlı sosial media istifadəçilərinə çağırış edib. Deputat türkdilli dövlətlərdən olan dostların çevrəsini genişləndirməyin vacib olduğunu vurğulayıb: "Özbək, qazax, türkmən, qırğız, tatar, türk, Güney azərbaycanlı tanışlarımızı Azərbaycan sosial media səhifələrinə dəvət edək. Hər kəs öz dilində, öz ləhcəsində yazsa da, bir-birimizi anlamağın çətin olmadığını görəcəksiniz! Bu yolla qardaş ölkələrin ictimai, siyasi, mədəni həyatı haqqında daha çox bilgi alarıq və əlaqələrimiz daha da genişlənər".**



*Sabir Rüstəmxanlı bu işin artıq başlandığını söyləyib:* "Türkiyə və Özbəkistandan olan dostlarımız və həmkarlarımızla əlaqələrimizin ildən-ilə genişlənməsi örnək sayıla bilər".

**Parlament üzvünün təklifi ilə bağlı "Şərq"ə danışan türkoloq-alim, Bütöv Azərbaycan Ocaqlarının təmsilçisi Faiq Ələkbərli deyib ki, türk xalqlarının sıx əməkdaşlığına nail olmaq üçün mümkün vasitələrin hamısından istifadə etmək lazımdır.** Alimin sözlərinə görə, türksoylu millətlərin müxtəlif sosial şəbəkə platformaları üzərindən münasibət qurması, əlaqələri daha da inkişaf etdirməsi faydalı və zəruratdir: "Ümummilli məsələlərdə, türk xalqlarının sevincli və kədərli günlərində daim ünsiyyətdə olmalıyıq. Şəxsən öz adıma deyim ki, tvitter, feysbuk, instaqram kimi sosial səhifələrimin dostluq siyahısında bütün türk xalqlarının nümayəndələri var. Onlarla mütəmadi danışığımız olur, fikir mübadiləsi aparırıq. Türkiyə ilə Azərbaycan arasında sosial platformalar üzərindən əməkdaşlıq yüksəkdir. Yaxşı olar ki, özbək, qazax, türkmən və tatarlarla yanaşı, başqırdlar, çuvaşlar, uyğurlar, eyni zamanda Kərkükdə, Hələbdə və güneydəki soydaşlarımızla da əlaqələrimizin masştabını genişləndirək. 44 günlük Vətən müharibəsində sosial şəbəkələrdə türk dünyasının birliyinin, türk xalqlarının həmrəyliyinin şahidi olduq. Demək olar ki, bütün türksoylu millətlərin nümayəndələri birmənalı öz qardaşlarının, Azərbaycan xalqının yanında dayandılar. Hörmətli Sabir bəyin dediyi kimi, bu sahədə fəaliyyətimizi daha da dərinləşdirməliyik. Müasir dövrdə internet resurslarından yararlanmalıyıq".

### "Müasir dövrdə internet resurslarından yararlanmalıyıq"

**İsmayıl Qocayev**

# "20 Yanvar müstəqilliyə gedən yolu yaxınlaşdırdı"

## Kərəm Məmmədov: "Bakı ətrafına 9 ən müasir silah və texnika ilə təchiz olunan müxtəlif qoşun hissələri gətirildi və faciə törədildi"



*Tariximizə Qanlı Yanvar faciəsi kimi daxil olan 1990-cı il 20 Yanvar hadisələrindən 31 il ötür. Düz 31 il əvvəl doğma yurdunun azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətənpərvər Azərbaycan övladları həmin qanlı gecədə canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar.*

20 Yanvar Azərbaycan xalqının tarixində sadəcə ağrı və acı ilə deyil, həm də şan və şərəf günü kimi xatırlanır. Xalq həmin gün üstünə şığıyan qana susamış sovet ordusuna qarşı sinəsini sipər etməyi, özünün mənliyini və mətnliyini nümayiş etdirməyi bacardı. Məhz həmin hadisələr sübut etdi ki, xalqımız pozulan hüquqları və suverenliyi uğrunda savaşmaq əzminə malikdir.

1990-cı ilin yanvarında Azərbaycan təlatümlü günlərini yaşayırdı. Separatçı ermənilər getdikcə azğınlaşırdılar. Sovet dövləti isə bunlara göz yumur, Azərbaycan torpaqlarının işğalına, azərbaycanlılara divan tutulmasına himayədarlıq edirdi. Azərbaycan xalqı artıq dərk edirdi ki, SSRİ dövləti ona heç bir köməklik göstərməyəcək və nicat yolu yalnız müstəqillik əldə etməkdən keçir.



**Qan yaddaşımızla bağlı "Şərq"ə danışan tarixçi-alim Kərəm Məmmədov bildirib ki, xalq hərəkatını boğmaq, Azərbaycanın müstəqilliyə doğru gedən yolunu bağlamaq üçün Sovet imperiyasının başında duranlar müdhiş bir qırğın planı hazırladılar:** "Mixail Qorbaçovun başçılıq etdiyi qaniçən Sovet rəhbərliyi SSRİ-nin dağılmasının qarşısını almaq, azadlığını tələb edən başqa xalqlara da "dərs vermək" üçün Bakını qan içində boğmaq qərarına gəlmişdi. Odur ki, Bakı ətrafına 9 ən müasir silah və texnika ilə təchiz olunan müxtəlif qoşun hissələri gətirildi və faciə törədildi. 1990-cı il yanvarın 19-da SSRİ Ali Soveti Rəyasət Heyəti yanvarın 20-də saat 00:00-dan "Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında" fərman verdi. Xalqı qəflətən yaxalamaq, ona divan tutmaq, qırğın törətmək məqsədilə fövqəladə vəziyyətin elan olunduğu vaxt gizli saxlanıldı. Fövqəladə vəziyyət, komendant saatı vaxtının əvvəlcədən elan edilməsi Moskvanın qanlı planlarını poza bilərdi".

K.Məmmədov qeyd edib ki, 20 Yanvar faciəsi Azərbaycan xalqını daha da sıx birləşdirdi, müstəqilliyə gedən yolu yaxınlaşdırdı: "Bu faciəyə ilk olaraq öz münasibətini bildirən Ümummilli Lider Heydər Əliyev olub. O, 1990-cı il yanvarın 21-də faciə ilə əlaqədar Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində keçirilən yığıncaqda çıxış edərək bu hadisəni törədən şəxsləri kəskin şəkildə tənqid edib.

Qanlı Yanvar hadisəsinə siyasi-hüquqi qiymət də məhz Ulu Öndər H.Əliyevin yenidən hakimiyyətə gəlişindən sonra verilib.

Prezident İlham Əliyev də 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi, adlarının uca tutulmasını daim diqqət mərkəzində saxlayır, bu istiqamətdə mühüm tədbirlər həyata keçirir".

**Yeganə Bayramova**



## Vətəndaşlar xiyabana beş nəfərlik qruplarla daxil olacaq

### Şəhidlər Xiyabanını ziyarət əvvəlki illərdən fərqli təşkil ediləcək

**Koronavirus infeksiyasının geniş yayılmasının qarşısını almaq məqsədilə ölkədə tətbiq edilən sərt karantin rejiminin tələblərinə uyğun olaraq bütün kütləvi tədbirlər və toplantılar qadağan edilib.**

Bunu nəzərə alaraq bu il 20 Yanvar - Ümumxalq Hüzn Günü ilə əlaqədar Şəhidlər Xiyabanını vətəndaşların ziyarəti əvvəlki illərdən fərqli təşkil ediləcək.

**Bu barədə "Şərq"ə Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən bildirilib.**

Qeyd olunub ki, Xiyabana gəlmək istəyən ziyarətçilər mütləq qaydada tibbi maskadan istifadə etməli və sosial məsafənin qorunması üçün beş nəfərdən artıq qruplarda toplaşmamalıdırlar. Ona görə də vətəndaşlar xiyabana beş nəfərlik qruplarla daxil olacaq və dayanmadan ziyarətlərini başa vurub ərazidən çıxacaqlar. Bildirilib ki, Xiyabanın daxilində və kənarda insanların toplaşması yolverilməzdir. Ziyarətə gələnlərin təhlükəsiz hərəkətlərini təmin etmək məqsədilə Şəhidlər Xiyabanı istiqamətində olan küçə və prospektlərdə nəqliyyatın hərəkəti məhdudlaşdırılacaq.

Bu tələblər yalnız vətəndaşların sağlamlıqlarının və təhlükəsizliklərinin qorunması məqsədi daşıyır və əminik ki, ziyarətçilər anlayışla qarşılayacaqlar.

# Paşinyanın getməsini nə Qərb istəyir, nə də Rusiya

## Sosial şəbəkələr üzərindən vəziyyət fərqli görünür

*Ermənistan hakimiyyəti növbədənkənar seçkiyə hazırlaşır. "Joxovurd" qəzetinin məlumatına görə, Baş nazir Nikol Paşinyan fərqli siyasi xadimlərlə görüşlər keçirir. Paşinyanın seçkiqabağı blok yaratmaq fikrində olduğu, buraya Arman Babacanyanın Respublika Adına Partiyasını və Edmon Marukyanın İşıqlı Ermənistan Partiyasını qatmaq niyyəti vurğulanır.*

Baş nazir hakimiyyətə gəldiyi gündən müstəqil siyasət yürütdüyünü bəyan etsə də, hazırda Ermənistanın nə qədər "müstəqil" olması göz önündədir. Çıxılmaz vəziyyətə qalan Yerevan hökuməti hələ də Qərblə Rusiya arasında "bağlılıq" oyunu oynamaqdadır. Azərbaycanın qələbəsi ilə bitən 44 günlük Vətən müharibəsindən sonra erməni baş nazirə qarşı etirazlar artıb. Hökumət əleyhdarları hər fürsətdə məğlub Paşinyanın istefasını tələb edir, hakimiyyətin dəyişməsini istəyirlər. Etirazçıların fikrincə, 10 noyabr üçtərəfli bəyanatının şərtlərinə əməl olunsa belə bunu Paşinyandan sonrakı hakimiyyət etməlidir. Məlum səbəblərdən Moskva hələlik Paşinyanın göndərilməsinə dəstək vermir. Kreml hesab edir ki, indiki gərgin şəraitdə onun əvəzlənməsi Rusiyanın maraqları ilə üst-üstə düşməyə bilər. Məsələ ondadır ki, baş naziri hakimiyyətə gətirən Qərb dairələri və Soros Fondu da Paşinyandan tamamilə əlini çəkməyib. Son proseslər, ələlxüsus Kremllə yaxınlaşma cəhdləri Qərbi hiddətləndirsə də, Soros Paşinyandan imtina etməyə tələsmir. Ermənistandakı siyasi prosesləri təhlil edən politoloqların fikrincə, Paşinyanı öz postunda saxlayan əsas səbəb ona etibar edilməsi deyil. Məsələ baş nazirin yerinə kimin keçəcəyi ilə bağlıdır. Hər şeyə rəğmən, Nikol Paşinyan hələ də iqtidardadır...

**Prosesləri "Şərq"ə dəyərləndirən siyasi şərhçi, tanınmış jurnalist Elçin Alıoğlu bildirib ki, Ermənistandakı olaylara kənardan, sosial şəbəkələr üzərindən baxdıqda əksəriyyətin Nikol Paşinyanın istefasını istədiyi görüntüsü yaranır.** Lakin analitik vurğulayıb ki, əslində vəziyyət tam tərsinədir. Onun sözlərinə görə, əgər Ermənistanda real və obyektiv sorğu keçirilərsə, 60 faiz respondent Paşinyanı dəstəkləyəcək: "Ancaq baş nazirin reytinqinin aşağı düşməsinin səbəbləri çoxdur. Ermənistan cəmiyyəti son 30 ildə "böyük ruh yüksəkliyi" içində idi. Ermənilər özlərini "qalib xalq" görürdülər. Cəmi 44 gün davam edən hərbi əməliyyatlar nəticəsində Ermənistan böyük siyasi böhranla, hərbi məğlubiyyətlə, iqtisadi və maliyyə itkisi ilə üzləşdi. Hazırda ermənilərdə ciddi ruh düşkünklüyü, kütləvi depressiya hökm sürür. Revanşist çağırışlar həddindən artıq çox olsa da, üçüncü müharibənin başlanma ehtimalı sıfırın altındadır. İndiki dönəmdə Paşinyanın getməsində nə Qərb, nə də Rusiya maraqlıdır. Qərb ona görə maraqlı deyil ki, Paşinyan gedərsə, yerinə gələcək şəxslər aşkar şəkildə Rusiyanın marionetkaları olacaq. Sarkisyan və Koçaryandan tutmuş Vazgen Manukyana kimi, adı çəkilən əksər şəxslər Moskvaya bağlıdır. Paşinyanı hakimiyyətə daşıyan SOROS məhz bu səbəbdən baş nazirin üzərindən əlini götürmür. Bir sözlə, Qərb Ermənistanın müharibədə məğlub olmasında maraqlı olsa da, Paşinyanın istefasını istəmir. Rusiya isə Paşinyanı əvəz edəcək şəxslərin konkret hansı addım atacağını, mövqelərinin nə olacağını dəqiqləşdirə bilmir. Onsuz da Moskva Ermənistanın iqtisadiyyatına, ordusuna tam nəzarət edir. Ölkənin sərhədləri Rusiyanın Federal Təhlükəsizlik və Sərhəd Xidməti tərəfindən qorunur. Sonu naguman olan dəyişiklik Kremldə o qədər də maraq doğurmur".



**"Əgər Ermənistanda real və obyektiv sorğu keçirilərsə, 60 faiz respondent Paşinyanı dəstəkləyəcək"**

E.Alıoğlu vurğulayıb ki, sosial şəbəkələrin, xüsusən Teleqram kanallarının tam əksəriyyəti Rusiyada yaşayan ermənilər tərəfindən maliyyələşdirilir və idarə olunur: "Ermənistanda iki qüvvə arasında mübarizə gedir. Birinci qüvvə ölkədən kənarda yaşayan erməni diasporası, ikincilər isə Rusiyanın maliyyələşdirdiyi, texniki dəstək verdiyi qruplaşmalardır. Ermənistanda Paşinyanın istefasını tələb edən 17 müxalifət partiyasının 13-nü Qərb dairələri, 4-nü isə Rusiya maliyyələşdirir. Paşinyan isə hər iki tərəfdən istifadə edərək hakimiyyətini qoruyur. Ermənilərin seçim şansı yoxdur. Məsələ Paşinyanın getməsi deyil, getdiyi təqdirdə yerinə kimin gələcəyidir".

**Analitikin sözlərinə görə, Paşinyanın hakimiyyətdə qalmasını şərtləndirən digər məqamlar da mövcuddur:** "Ermənistanda koronavirusla bağlı karantin rejimi iyul ayına qədər uzadıldı. Deməli, ölkədə kütləvi tədbirlər, mitinq və yürüşlər keçirilə bilməz. Digər tərəfdən Ermənistanda hərbi vəziyyət hələ ləğv olunmayıb. Belə şəraitdə parlament Paşinyana qarşı impiçment qərarını tətbiq edə bilməz. Parlament üsul-idarəsinə keçid ölkədəki siyasi situasiyanı daha da ağırlaşdırır. Demokratiya ənənələri olmayan, icma təfəkkürü ilə idarə edilən, hələ də oliqarxiyanın nəzarətində olan bir ölkədə "parlament demokratiyası" ölkənin və xalqın maraqlarına deyil, bir qrup şəxsin mənafeyinə xidmət göstərir. Postsovet məkanında parlament-üsul idarəsinin tətbiq olunması Qərbin müdaxilələrindən sonra baş verib. Ukrayna və Gürcüstandan fərqli olaraq Ermənistanda dövlətçilik ənənələri yoxdur. Ermənilərin ənənəsi daha güclüyə tabe olmaq, onların əlində alətə və köləyə çevrilməkdir".

**İsmayıl Qocayev**

# Jurnalistlərə vahid “press-kart” verilməlidir



## Vüsalə Mahirqızı: “İnanıram ki, ilk mərhələdə mediada səliqə-sahman yaradılacaq”

**Yeni yaradılan Media İnkişaf Agentliyi (MEDİA) Azərbaycan mətbuatının zamanla ayaqlaşması, informasiya texnologiyalarının gətirdiyi yeniliklərə uyğunlaşması baxımından olduqca önəmlidir.**

Bu mənada Prezident İlham Əliyevin fərmanı ilə Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) əsasında yaradılan MEDİA-dan gözləntilər böyükdür. Ekspertlər hesab edir ki, yeni Agentlik medianın saflaşması, ölkədə jurnalistikanın inkişafı, peşəkar media nümayəndələrinin formalaşması, media quruluşlarının biznes modelinə keçməsi cəhətdən mühüm töhfələr verə bilər.

Onların fikrincə, Agentlik mediadakı rəqabətliliyi, keyfiyyət standartlarını təmin edə biləcək layihələr icra etməklə dövlətin mətbuata uğurlu dəstək modelinə çevrilə bilər.

**MEDİA-nın yaradılmasının mühüm addım olduğunu deyən ”APA Holdinq”in baş direktoru Vüsalə Mahirqızı ”Şərq”ə bildirib ki, yeni qurum mətbuatın fəaliyyətinə keyfiyyətli dəstək verəcək:** ”İlkin mərhələdə qanunda yenilənmə olmalıdır. İnternet və sosial media ilə bağlı qanunvericilikdə dəyişiklik öz əksini tapmalıdır. Onlayn media subyektlərinin statusu və fəaliyyətinə dair məsələlər də həll edilməlidir. Ən vacib məsələlərdən biri də jurnalistlərin vahid ”press-kart”la təmin olunmasıdır. Jurnalistlərlə bloqer və aktiv sosial şəbəkə istifadəçiləri arasında fərq olmalıdır. Jurnalistin ”immunitet”i var, hər kəs budan istifadə etməməlidir”.

**V.Mahirqızının fikrincə, agentlik jurnalistlərlə dövlət qurumlarının ictimaiyyətlə əlaqələr şöbələri arasındakı kommunikasiyanın daha ciddi təşkil edilməsində iştirak etməlidir:** ”Əlbəttə ki, qurumun fəaliyyət proqramında jurnalistlərin peşəkarlığının artırılması qeyd olunub. Sadaladığım məsələlər öz həllini tapandan sonra maliyyə resurslarının artırılması üçün müəyyən dəstəklərin verilməsi, reklam bazarı ilə bağlı təkliflərin nəzərə alınması və s. problemlər tənzimlənəcək. Əslində qurumun səlahiyyətləri çox genişdir. İnanıram ki, ilk mərhələdə mediada səliqə-sahman yaradılacaq, bundan sonra digər məsələlərlə məşğul olunacaq”.

**Yeganə Bayramova**

## Zəfər muzeyinin konsepsiyasının hazırlanması üzrə işlərə başlanılıb

Dövlət qurumların siyahısı müəyyənləşdirilərək Nazirlər Kabinetinə təqdim olunub



**Zəfər muzeyinin konsepsiyasının hazırlanması üzrə bir sıra işlərə başlanılıb.**

Trend-in məlumatına görə, Mədəniyyət Nazirliyinin şöbə müdiri vəzifəsini icra edən Nərgiz Abdulayeva bildirib. Onun sözlərinə görə, nazirlik tərəfindən muzeyin hazırlanmasına dair tədbirlər planı hazırlanıb:

”Burada muzeyin təşkilində iştirak edəcək dövlət qurumların siyahısı müəyyənləşdirilərək Nazirlər Kabinetinə təqdim olunub. Eyni zamanda nazirlik tərəfindən konsepsiyanın yaradılması ilə bağlı daxili işçi qrupu da yaradılıb. Artıq bununla bağlı iki iclas keçirilib və muzeyin ilkin konsepsiyası hazılanaraq müzakirəyə çıxarılıb”.

**N.Abdullayeva qeyd edib ki, Zəfər muzeyi fondunun təşkili ilə bağlı işlərə başlanılıb:**

”Artıq dövlət qurumlarına bununla bağlı müraciət etmişik ki, onlarda olan materiallar, eksponatlar, arxiv sənədlərini bizə təqdim etsinlər. Eyni zamanda bununla bağlı əhaliyə də müraicət olunub”.

## “Bu, kütləvi istifadə üçün deyil"

Nazir və TƏBİB rəhbərinə vaksin vurulmaması iddialarına cavab verilib



**Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) sosial şəbəkələrdə səhiyyə naziri Oqtay Şirəliyev və TƏBİB rəhbəri Ramin Bayramlının inyeksiya zamanı şprisdə vaksin deyil, başqa dərman olması barədə iddialara münasibət bildirib.**

Report bildirir ki, TƏBİB-dən verilən məlumata əsasən, sosial şəbəkədə yayılan şəkli yaxınlaşdırdıqda qablaşdırmanın üzərində ”only for clinical trial” yazılıb.

”Yəni, bu, kütləvi istifadə üçün deyil, sadəcə klinik araşdırmalar üçün nəzərdə tutulub. Əslində tibb işçiləri üçün istifadəsinin rahatlığı baxımından növbəti dəfələrdə birdəfəlik qablaşdırılmış şpris formasında gətirilməsi istehsalçılardan xahiş edilib. Lakin birinci mərhələdə istehsalçı şirkət zamanın az, tələbatın isə çox olduğunu nəzərə alaraq şpris qablaşdırılmasından imtina edib və birnəfərlik flakonlara üstünlük verib” - deyə sorğunun cavabında bildirilir.

TƏBİB-dən həmçinin bildirilib ki, dünən vaksin vurulan Ramin Bayramlı özünü yaxsi hiss edir: ”Heç bir problem yoxdur”.

# Heç vaxt unutmayacağıq

## Xalqımızın azadlığa gedən yolunun memarı 20 Yanvar şəhidləridir

Azərbaycan xalqının tarixinə Qanlı Yanvar faciəsi kimi daxil olmuş 1990-cı il 20 Yanvar hadisələrindən 31 il keçir. Keçmiş sovet ordusunun Azərbaycan xalqına qarşı həyata keçirdiyi hərbi təcavüz insanlıq əleyhinə törədilmiş ən ağır cinayətlərdən biri kimi qara hərflərlə tarixə düşüb. Sovet qoşunlarının, xüsusi təyinatlı bölmələrin və daxili qoşunların Bakıya yeridilməsi görünməmiş vəhşiliklə müşayiət edildi.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə SSRİ müdafiə naziri Yazovun rəhbərliyi altında qoşun hissələri müxtəlif istiqamətlərdən barrikadaları dağıdıb əliyalın əhaliyə ağır texnikadan və müxtəlif tipli silahlardan atəş açaraq şəhərə daxil oldular. Həmin vaxtadək 100-dən çox dinc sakin artıq qətlə yetirilmişdi. Qoşunların qanunsuz yeridilməsi nəticəsində Bakıda və ətraf rayonlarında 131 nəfər öldürülüb, 744 nəfər yaralanıb. Həlak olanların arasında qadınlar, uşaqlar və qocalar, həmçinin təcili yardım işçiləri və milis nəfərləri olub. Əməliyyatların gedişi boyunca paytaxt Bakı və respublikanın digər şəhər və rayonlarından 841 nəfər qanunsuz həbs edilib. Onlardan 112-si SSRİ-nin müxtəlif şəhərlərindəki həbsxanalara göndərilib. Hərbi qulluqçular tərəfindən 200 evə, 80 avtomobilə, o cümlədən təcili yardım maşınlarına atəş açılıb. Yandırıcı güllələrin törətdiyi yanğınlar nəticəsində külli miqdarda dövlət və şəxsi əmlak məhv edilib. Ümumilikdə, Azərbaycanın 150 nəfər ”20 Yanvar şəhidi” var.

O zaman yalnız Ümummilli Lider Heydər Əliyev siyasi iradə nümayiş etdirərək Moskvadakı Azərbaycan nümayəndəliyinə gəlmiş və SSRİ rəhbərliyinin törətdiyi bu cinayəti qətiyyətlə pisləşmişdir. Ulu Öndərin Azərbaycan rəhbərliyinə qayıdışından sonra 1994-cu ilin yanvar ayında Milli Məclisdə faciəvi 20 yanvar hadisələrinə siyasi qiymət verilmişdi. Yanvar faciəsində qətlə yetirilənlərin, şəhid ailələrinin, əlillərin problemlərinin dövlət səviyyəsində həlli istiqamətində böyük tədbirlər həyata keçirilib. 2006-cı il yanvarın 19-da ölkə başçısı İlham Əliyevin fərmanı ilə 20 Yanvar şəhidlərinin ailələri üçün ”Prezident təqaüdü” təsis edilib. Dövlət başçısının Şəhidlər Xiyabanı kompleksinin yenidən qurulması ilə bağlı sərəncamı Vətən şəhidlərinin xatirəsinə ehtiramın daha bir nümunəsinə çevrilib. 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi istiqamətində daha bir addım metronun ”20 Yanvar” stansiyasının üzərindəki dairədə xatirə kompleksinin yaradılması oldu. Yanvar faciəsi ümumxalq hüznü olmaqla yanaşı, həm də Azərbaycan xalqının iradəsinin sarsılmazlığını, mətinliyini göstərdi. Xalqımızın qan yaddaşında əbədi yaşayacaq 20 Yanvar faciəsi hər il ümumxalq hüzn günü kimi geniş qeyd edilir. Eyni zamanda dünya ictimaiyyətinin diqqətini Qanlı Yanvar faciəsinə yönəltmək üçün Azərbaycanın xarici ölkələrdəki səfirlikləri, diplomatik nümayəndəlikləri, Azərbaycan icmaları tərəfindən də müvafiq tədbirlər həyata keçirilir.



**Tarix üzrə fəlsəfə doktoru Kamran Əsədov ”Şərq”ə bildirib ki, xalqımızın azadlığa gedən yolunun memarı 20 Yanvar şəhidləridir. Tarixçi-alim vurğulayıb ki, 20 Yanvar hadisəsi xalqımızın qəhrəmanlıq tarixinə ayrıca bir səhifə kimi yazılıb:** ”O məşum gündə Azərbaycanı müstəqil, suveren dövlət olaraq görmək istəyən vətən övladları sovet imperiyasına qarşı öz etirazlarını bildirdi. Əliyalın şəkildə tankların, silahlı əsgərlərin qarşısına çıxmaqdan çəkinmədilər. Hər il ənənəvi olaraq 20 Yanvar şəhidlərinin unudulmaz xatirəsi respublikamızın hər yerində anılır. Orta və ali məktəblərdə 20 Yanvar hadisəsi ilə bağlı müxtəlif məzmunlu silsilə tədbirlər keçirilir. Pandemiya dövründə dərslərin onlayn keçirilməsi 20 Yanvar faciəsi ilə bağlı anım mərasiminin yeni formatda keçirilməsini aktuallaşdırır. Faciənin 31-ci ildönümündə ənənəvi ədəbi-bədii kompozisiyalarla yanaşı, hər bir fənn müəllimi mövzu barədə ayrıca məlumat verməlidir. Çünki digər faciələrimizdən fərqli olaraq, 20 Yanvar başqa bir anlam daşıyır. Bu tarixi günün məramı xalqımızın azadlıq istəyi ilə bağlı olduğu üçün, ona fərqli yanaşma tələb olunur. Həm də tədbirlərin təşkilində Zəfərlə başa çatan 44 günlük Vətən müharibəsini xüsusi yad etmək lazımdır. Tanınmış ziyalıların, tarixçi-alimlərin, şair və yazıçıların, millət vəkillərinin onlayn anım tədbirlərinə qatılması, şagirdlərə 20 Yanvar mövzusunda onlayn dərslərin keçirilməsi vacibdir. Bu günü unutmamalı və unutdurmamalıyıq”.

**İsmayıl Qocayev**

# “Şərtlər dəyişəcək”

## Volkan Aydemir: “Rus əsgərlərinin mühafizəsində olan ermənilərin “şıltaqlıqlarına” son qoyulacaq”



**“Rus hərbçilər qarşılarında başqa bir güc görəndə avtoritar siyasətdən əl çəkib, diplomatik qaydalara əməl etməyə başlayacaqlar"**

**Birinin uğuruna ən çox sevinən həmişə onun qardaşı olur. Biz bunu Azərbaycanın qazandığı tarixi zəfər zamanı Türkiyənin reaksiyalarından, o cümlədən dəstəyindən gördük. Müharibənin ilk günlərindən etibarən ürəkləri bizimlə, əlləri çiyinlərimizdə idi.**

Hətta günü bu gün də müharibədəki qələbəmizdən danışırlar. Özü də ağızdolusu, gözləri güləərək. Türkiyəli jurnalist, siyasi analitik Volkan Aydemir isə digərlərindən daha çox sevinir. Çünki o həm də Türkiyənin Kocaeli Derincə Azərbaycan Evi Dərnəyinin rəhbəridir. Yəni həqiqətlərimizə kifayət qədər bələd olan, hadisələri yaxından izləyən insandır. Odur ki, ”Şərq” qəzeti olaraq Azərbaycanı özünə ikinci vətən bilən Volkan bəylə əlaqə saxlayıb, söhbətləşdik:

**- Tarixi zəfərimizi necə qiymətləndirirsiniz?**

- Azərbaycan silahlı qüvvələri İkinci Qarabağ müharibəsində həqiqi bir dastan yazdı. Siz çox qısa zamanda mürəkkəb relyefə sahib ərazinizi geri aldınız. Beləliklə, Azərbaycan müdrik Ali Baş Komandana, peşəkar və yüksək döyüş qabiliyyətinə malik orduya malik olduğunu dünyaya göstərdi.

**- Bu zəfərdə jurnalistlərin, medianın rolu nədən ibarət idi?**

- İnformasiya dövründə olmağımızla əlaqədər dünyanın istənilən nöqtəsindəki xəbərə internet vasitəsilə çata bilərik. Deməli, birbaşa mənbədən gələn xəbərləri ictimailəşdirmək mümkündür. Bu işi görən isə jurnalistlərdir. Biz bunu təkcə İkinci Qarabağ savaşında deyil, həm də Xocalı qətliamında, vaxtı ilə torpaqlarımızın işğalı vaxtında da görmüşdük. Məhz mətbuat işçilərimizin fəaliyyəti nəticəsində dünya ictimaiyyəti daha ermənilərin göz yaşlarına inanmır və Azərbaycanın haqq davasını dəstəkləyənlərin sayı günü-gündən artır.

**- Bildiyiniz kimi, 10 noyabr bəyanatının şərtlərinə əməl edilmir. Rus sülhməramlıları açıq-aydın tərəf tutur. Belə bir vəziyyətdə hansı addımları atmaq olar?**

- Bəli, razılığa nəzəriyyədə əməl edilsə də, praktika başqa şeyi göstərir. Bunun səbəbi isə rus əsgərlərinin ermənilərə qarşı simpatiyası, tarixi və dini yaxınlıqları və regionda hələlik tək olmalarıdır. Qarşılarında başqa bir güc görəndə avtoritar siyasətdən əl çəkib, diplomatik qaydalara əməl etməyə başlayacaqlar. Odur ki, biz səbirsizliklə türk sülhməramlılarının bölgəyə yerləşməsini gözləyirik.

**- Yəni bundan sonra vəziyyət dəyişəcək?**

- Əlbəttə. Beləliklə, 10 noyabr şərtlərinə əməl edilməsi və rus əsgərlərinin mühafizəsində olan ermənilərin ”şıltaqlıqlarının” qarşısının alınması təmin olunacaq. Yəni şərtlər dəyişəcək.

**- Ermənistan Baş naziri Nikol Paşinyan yanvarın 11-də Moskvada keçirilən üçtərəfli görüşdə məsələnin hələ bitmədiyini deyib. Sizcə, bu, nəyə işarədir?**

- Onu qarşıda çox çətin aylar gözləyir. Öz ölkəsindəki seçimlərdə səs qazanmayacaq vəziyyətdədir. Erməni diasporu və rus hakimiyyəti Paşinyanı istəmir.

**“Odur ki, səbirsizliklə türk sülhməramlılarının bölgəyə yerləşməsini gözləyirik”**

Ancaq Qərb ölkələri, o cümlədən Avropa Birliyi erməni baş naziri dəstəkləyir. O da müəyyən qədər. Baş nazirin belə davranışları isə səs qazanmağa hesablanıb. Hər halda Ermənistan ordusu və diasporu növbəti savaşa yaxın vaxtlarda başlamaz. Fəqət yenə də diqqətli olmaq lazımdır.

**- Prezident İlham Əliyevin və Prezident Rəcəb Tayyib Ərdoğanın anonsunu verdikləri altılıq platforması barədə nə düşünürsünüz?**

- Bu fikir illər əvvəl 3+3 kimi ortaya çıxmışdı. Yəni Rusiya, Türkiyə və İran birləşib Azərbaycan, Gürcüstan, Ermənistan problemini həll etməli idilər. İndi iki ölkə rəhbərlərinin bu məsələni müzakirə etməsi onların biribirlərinə verdikləri dəyərdən irəli gəlir.

**- Ermənistanın həmin platformada yer alması nə qədər realdır?**

- Əslində daha maraqlısı İrandır. Belə ki, əgər rəsmi Tehran buna razı olsa, onun strateji tərəfdaşı Ermənistan da avtomatik ”hə” deyəcək.

**- Dünya Azərbaycan və Türkiyə qardaşlığından dərs çıxaracaq?**

- Bəli, dünya bundan dərs çıxarır. Amma vacib olan çıxarılan dərsin bizə təsiridir. Əlbəttə, qardaşlığımızı dəstəkləyənlər də, paxıllıq edənlər də var. Deməli, hər iki ölkənin xarici işlər nazirliklərinin və cəmiyyətin üzərinə böyük məsuliyyət düşür.

**- Mütəxəssislər iki ölkə arasında ortaq media platformasının yaranmasının əhəmiyyətindən danışırlar. Belə bir layihə bizə nə verəcək?**

- İki ölkənin KİV-i arasında əlaqələr mütləq olmalıdır. Amma ortaq media quruluşu, məncə, kifayət etməz. Ən azından media quruluşunun ən yuxarı səviyyəsi olan xəbər agentliyi yaradılmalıdır. Ora peşəkarlar dəvət edilməlidir. Yalnız informasiyanın çatdırılmasına deyil, eyni zamanda təhlilə, multimedia vasitələrindən istifadəyə diqqət yönəlməlidir. Əgər bu media platforması professional səviyyədə qurulsa, iki ölkə arasındakı iqtisadi, siyasi və mədəni əlaqələr bizi dünya dövlətləri arasında ən yuxarı zirvəyə apara bilər.

**Kənan Novruzov**

# “Sevinsinlər ki, 62 nəfəri sadəcə əsir götürmüşük”

## Akif Nağı: “Hərbi əməliyyatlar dayanandan sonra kimsə silahlı bir cəhd göstərirsə, bu artıq terror hərəkatıdır”

Ermənistan Xarici işlər naziri Ara Ayvazyan Birləşmiş Millətlər Təşkilatının Baş katibi Antoniu Quterreşə məktub ünvanlayıb. Bu barədə "armenews.com" saytı yazıb. Məktub 62 nəfərdən ibarət erməni terrorçusunun 10 noyabrda imzalanan üçtərəfli (Azərbaycan, Rusiya və Ermənistan ) bəyanatdan sonra Azərbaycan ərazilərində diversiya-təxribat fəaliyyəti zamanı ələ keçirilməsi ilə bağlıdır.



Ermənistan tərəfi həmin terrorçuların ”müharibə məhbusu” olduğunu iddia edərək azad edilmələrini istəyir. Lakin düşmənin bu cəhdi 10 noyabrda Ermənistanın imzaladığı kapitulyasiya sənədi ilə daban-dabana ziddiyyət təşkil edir.

Qeyd edək ki, Ermənistan XİN başçısı sözügedən müraciətində yenə də Xankəndi əvəzinə ”Artsakh” ifadəsini işlədib. Halbuki, artıq Qarabağ müharibəsi bitib, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edib.

Ona görə də ”Artsakh” deyil, Xankəndi yazılmalı, ermənilər bu gerçəklə barışmalıdırlar. Amma Ermənistan tərəfi hər zamankı kimi revanşist cəhdlərlə çıxış edirlər.

**Qarabağ Azadlıq Təşkilatının (QAT) sədri Akif Nağı ”Şərq”ə bildirib ki, müharibə bitib, Vətən savaşında qalib olmuşuq:**

”Rusiyanın məsələyə müdaxilə etməsi ilə Ermənistan ordusu tamamilə dağılmaqdan xilas edildi. Ermənistan heç vaxt reallığa və öz gücünə uyğun mövqe tutmayıb. Ona görə də başlarına faciələr gəldi.

Ümumiyyətlə, bu hal erməni toplumuna xas olan xüsusiyyətdir. Onlar heç vaxt öz gücləri və imkanları daxilində mövqe tutmayıblar. Hesab edirəm ki, Ermənistan indiki şəraitdə də ağıllanmayıb. Azərbaycanın növbəti dəfə zərbəsini almalıdırlar ki, ağılları başlarına gəlsin.

62 terrorçu ilə bağlı məsələ müzakirə olunur, bu mövzunu Rusiyanın da qarşısına qoyurlar, onlardan kömək istəyirlər. Amma Rusiyanın Xarici işlər naziri də dedi ki, həmin şəxslər 10 noyabr bəyanatından sonra götürülən əsirlərdir.

Artıq hərbi əməliyyatlar dayandırılmışdı. Bundan sonra atılan addımlar ancaq terror hərəkəti kimi dəyərləndirilir. Heç beynəlxalq təşkilatlar da onlara kömək edə bilməz. Çünki beynəlxalq hüquq Azərbaycanın tərəfindədir.

Hərbi əməliyyatlar dayanandan sonra kimsə silahlı bir cəhd göstərirsə, bu artıq terror hərəkatıdır. Azərbaycan da həmin terrorçuları zərərsizləşdirməli idi.

Ermənistan sevinsin ki, həmin separatçıları sadəcə əsir götürmüşük. Onlar məqsədlərinə nail ola bilməyəcəklər. Ağıllarını başlarına yığsalar yaxşı olar, yığmasalar yenə də faciələrlə üzləşəcəklər”.

**Yeganə Bayramova**

## Azərbaycan və Rusiya minaaxtaranları 210 mina zərərsizləşdirib

**Rusiya Federasiyası Mülki Müdafiə, Fövqəladə Hallar və Təbii Fəlakətlərin Nəticələrinin Aradan Qaldırılması üzrə Nazirliyinin pirotexniklərdən ibarət qrupu Azərbaycanın Fövqəladə Hallar Nazirliyinin əməkdaşları ilə birlikdə işğaldan azad olunmuş torpaqlarımızın minalardan təmizlənməsi əməliyyatını davam etdirir.**

FHN-dən “Şərq”ə verilən məlumata görə, birgə fəaliyyət nəticəsində yanvarın 19-dək ümumilikdə 5 hektardan artıq sahədə axtarış işləri aparılıb.

Bu müddət ərzində 210 ədəd mina və 2 ədəd partlamamış sursat aşkar olunaraq müvafiq qaydada zərərsizləşdirilib. Minalardan 174 ədədi piyada əleyhinə, 36 ədədi isə tank əleyhinə olan minalardır.

## Heç bir əks-təsir müşahidə olunmayıb

### Artıq 14 nəfər peyvənd olunub, vəziyyətləri yaxşıdır



**Dünəndən başlayan vaksinasiya prosesində indiyə qədər 14 nəfərə vaksin vurulub.**

Bu barədə Trend-ə Səbail rayonu 2 nömrəli şəhər poliklinikasının baş həkimi Sevda Aslanova bildirib. Onun sözlərinə görə, vaksin vurulan şəxslərin vəziyyəti tam normaldır: ”Bildiyimiz kimi vaksinasiya prosesinə ötən gündən start verilib. İlk olaraq baş həkim kimi mən vaksinasiya olundum, daha sonra digər işçilər. Artıq 14 nəfərə vaksin vurulub, vəziyyətləri də yaxşıdır, heç bir əks-təsir müşahidə olunmayıb”.

*Baş həkim qeyd edib ki, vaksin vurulan şəxslərin hamısı işçi heyətidir və həftə sonuna kimi poliklinikanın 70-80 faizi vaksinasiyadan keçəcək.*



# “General Mais Bərxudarovun sözü onu Şuşaya aparıb”

## “Gəncədən çıxırdım, zəng gəldi ki, qardaşın Şuşada yaralanıb”







**“Şərq” Vətən müharibəsi qəhrəmanlarını tanıtmağı davam etdirir. İndi sayğıdəyər oxucularımıza İkinci Qarabağ savaşı şəhidlərindən birinin həyatı, döyüş yolu haqqında məlumat verəcəyik.**

**Şəhid Asif Nəsir oğlu Mədətov 1988-ci ildə Ağstafa rayonunun Kolxəlfəli kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra həqiqi hərbi xidmətə çağırılıb. 2008-ci ilin yanvarına qədər Vətənə borcunu ödəyərək ehtiyata buraxılıb.**

2015-ci ildən müddətdən artıq hərbi qulluqçu kimi Ağstafa rayon N saylı hərbi hissənin kəşfiyyat dəstəsinin 3-cü kəşfiyyat qrupunun plemyotçu vəzifəsində xidmətini davam etdirib. Qəhrəmanımız ailəlidir, iki övladı yadigar qalıb.

Şəhidə dair məlumatları bizimlə paylaşan Valeh Mədətov deyir ki, Asiflə yanaşı qardaşı Məhəmməd də İkinci Qarabağ müharibəsində vuruşub. Mədətovlar ailəsinin bir oğlu şəhid, digəri isə qazidir.

**Vətən savaşı dastanına iki adla - qazi və şəhid qardaşı kimi yazılan Məhəmməd isə Asifin döyüş yolu ilə bağlı bunları nəql edir:** ”Qardaşımın olduğu dəstə müharibə başlayanda Qazax istiqamətində ”Kosalar” meşəsi tərəfdə yerləşdirmişdilər. Onlar Qazaxdan hücuma keçib, əsarət altında olan 7 kəndi işğaldan azad edəcəkdilər. Sonra Şuşa döyüşləri üçün kəşfiyyatçı lazım olub. Deyiblər ki, kim istəsə XTQ-nin tərkibinə qatılacaqlar. Kim istəyirsə, gəlsin. Həm də general Mais Bərxudarov da Şuşa döyüşləri üçün Qazax kəşfiyyatçılarının gətirilməsini istəyib. Deyib ki, onlar sona qədər kişi kimi savaşırlar. Qardaşım bu sözləri eşitdikdən sonra həvəslənib. Seçilmiş dəstə ilə birgə Hadruta yollanıb. Elə Hadrutdan mənə zəng etdi. O zaman mən də yaralı idim. Oktyabr ayının 28-i, ya da 30-u olardı. Bir də foto göndərdi ki, Hadrutun meşəsindəyəm. Sonra bir müddət zəng çatmadı. Narahat idim, ürəyim dözmədi. Gəncədən Qazaxa, xidmət etdiyi hərbi hissəyə tərəf yol aldım. Düşünürdüm ki, hərbçiyəm, mənə yalan deməzlər, Asif haqqında düzgün məlumat verərlər. Gəncədən çıxırdım, zəng gəldi ki, qardaşın Şuşada yaralanıb. Dedilər, Füzuliyə gəlib, yaralını götürməlisiniz. Bildirdim ki, mən də hərbçiyəm, düzünü deyin. Şəhiddir, ya yaralı? Söylədi ki, tank vurub, şəhid olub. Soruşdum ki, axı tank vursa, tikəsi də qalmaz. Nəşi hansı durumdadır? Dedi, qarın hissəsindən yaralanıb. Xülasə, danışdıqdan sonra kəndə getdim. Gördüm, xəbər çatıb, hamı ağlayır. Onları sakitləşdirdim ki, hələ ağlamayın, görək nə məsələdir.

Ardınca axtarışa başladıq. İki maşın adam yığılıb, həm Qazaxın Diaqnostik Mərkəzi Xəstəxanasına, həm də Ağstafadakı xəstəxanaya baxdıq. Bəlkə yaralıların içində olar deyə axtardıq. Amma bizim bölgədə tapa bilmədik. Ağlıma bir fikir gəldi. Mən yaralananda Ağcabədidə əməliyyat olunmuşdum. Ordakı həkimimə zəng etdim, dedim xəstəxanaya baxa bilərsinizmi, bəlkə qardaşım ordadır. Onlar da axtardılar, tapa bilmədilər. Sonunda noyabrın 8-i Füzuliyə yola düşdük. Allah şəhidlərimizə rəhmət eləsin. Orda gələn şəhidlərə baxıb, qardaşımı tapmağa çalışırdım. Bir gün axtardıq. İkinci gün Beyləqanda qaldıq. Qayıdanda xəstəxanaya şəhid gətirilib-gətirilmədiyini soruşduq. Dedilər, 95 şəhid gəlib, hamısı da Şuşa döyüşlərindən, içlərində kəşfiyyatçı da var. Qardaşımın orda olduğuna əmin idim. Şəhidlərə baxmağa başladıq.... və tapdıq. Asifi formasından tanıdım, fotosunu görmüşdüm”.

**Məhəmməd deyir ki, qardaşımın müqəddəs nəaşi salamat tapıldığı üçün şükür edirdik:** ”Orda soruşdum ki, axı deyirdilər, mədəsi yoxdur və sair. Nəysə, götüzdürdüm, stolun üstə qoydular. Diqqətlə baxdım, yarasını axtardım. Demə, snayperlə vurulub. Güllə ombanın üstdən, sağ tərəf, ön hissədən şah damara dəyib. Qanaxmanı dayandırmaq mümkün olmayıb. Meşənin içində yardım da edə bilməyiblər. Mən də o yerləri görmüşəm, relyefi çətindir. Yenə də düşünürəm ki, bəlkə kömək edilə bilsə, yaşayardı. Qardaşımı ordan gətirdik, dəfn etdik. Vətən sağ olsun, biz onunla qürur duyuruq. Hətta Asif müharibəyə gedəndə anam soruşub ki, nə vaxt qayıdacaqsan? Deyib, mən bayrağa bükülüb gələcəm. Elə də oldu. Hadrutda olarkən danışdıq, dedi, bilirəm yaralısan, get anamın yanına. O tək qalmasın. Bizim atamız yoxdur, tez rəhmətə gedib. Az yaşımızdan yetim böyümüşük. Anam bizi vətənpərvər ruhda tərbiyə edib. Qardaşım şəhiddir, mən də qaziyəm. Hərbi formanı geyinmişiksə, vəzifəmizi yerinə yetirməliyik. Ya yaralanmalıydıq, ya da ölməliydik. Ya qələbə ilə qayıtmalıydıq, ya da şəhadətlə. Mən də qazi kimi gəldim”.

**Asif silahdaşlarından son dəfə xahiş edib ki, şəhid olsa, müharibə zamanı çəkilən fotolarını qardaşına versinlər:** ”Biz onunla fəxr edirik. Kəşfiyyatçı olmaq da öz arzusu idi, Şuşaya da könüllü getdi. Hətta bir dəfə onu Qazaxın postuna göndərmişdilər. İki il orda xidmət edib. Sonra kəşfiyyat rəisinə zəng edərək, Ağstafadakı kəşfiyyat bölüyünə qayıtmaq istədiyini deyib. Onlara Şəmkirdə təlim keçmişdilər. Təlimlərdən də üzüağ çıxmışdı. Sonra da Vətən müharibəsinə yollandı. Dediyim kimi, əvvəlcə Qazaxda idi, sonra Hadruta, ordan da Şuşaya getdi. Şuşanı da kəşfiyyatçılarla birgə Xüsusi Təyinatlılar işğaldan azad etdi. Noyabrın 8-də də Şuşa işğaldan azad oldu. Mən də tankçıyam. Orda nə tankçılar, nə də topçular vardı. Ancaq əlbəyaxa döyüşlər gedirdi. Oğullarımız öz qanları, canları bahasına Şuşanı əsarətdən qurtardı. Bir də deyim ki, biz cənab Ali Baş Komandandan çox razıyıq. Bizim arxamızda durur, dəstək olur. Allah qardaşımın timsalında bütün şəhidlərimizə də rəhmət eləsin. Biz Asiflə fəxr edirik”.

**Samirə Ərəbova**

# Paşinyanın məqsədi Rusiyaya meydan oxumaqdır

## Baş nazir Koçaryanı yenidən məhkəmə salonuna çəkməklə əsas rəqibini sıradan çıxarmaq istəyir



**Dörd aylıq fasilədən sonra Ermənistanın sabiq prezidenti Robert Koçaryanın məhkəmə prosesi bərpa olunub. Sabiq prezident 2008-ci ilin martında baş vermiş kütləvi etiraz aksiyaları ilə əlaqədar dövlət çevrilişi cəhdində ittiham olunur.**

Eyni zamanda R.Koçaryanın tərəfdarları məhkəmə binası qarşısında etiraz aksiyası keçirib. Aksiya zamanı hökumət əleyhinə şüarlar da səsləndirilib.

**Baş verənləri ”Şərq”ə şərh edən siyasi elmər namizədi, politoloq Cümşüd Nuriyev bildirib ki, əvvəllər də Koçaryana qarşı cinayət işi açılıb. Lakin İkinci Qarabağ müharibəsindən öncə Rusiyanın təkidi ilə onu azadlığa buraxdılar.**

Analitikin sözlərinə görə, Koçaryan hakimiyyətə gəlmək istəyirdi və onu Amerikanın təkidi ilə zərərsizləşdirdilər:

”Hazırda Amerika Paşinyanı dəstəkləyir və onun hakimiyyətdən getmə ehtimalı çox aşağıdır. Təbii ki, Paşinyan da öz rəqiblərini sıradan çıxarmalıdır. Ona görə də yenidən məhkəmə işini bərpa etdi, hətta bunun üçün Ali məhkəmənin üzvlərini dəyişdirdi. Paşinyanın əsas məqsədi Rusiyaya meydan oxumaqdır. Çünki o, açıq şəkildə etiraf etdi ki, ”Rusiyadan istədiyim dəstəyi ala bilmədim”. Ermənistan rəhbərliyi Azərbaycanın gücünü dəqiq hesablamamışdı. İkinci Qarabağ müharibəsi gedən zaman Ermənistan Təhlükəsizlik Şurası qərar verdi ki, oktyabrın 9-da savaş dayandırılsın. Amma Paşinyan elə fikirləşdi ki, müharibədə qalib gələcək, ona görə də sonuna qədər getdi”.

**C.Nuriyevin qənaətincə, hazırda Paşinyan ölkə daxilindəki fikri ayrı istiqamətə yönəltmək istəyir:** ”Yeni müharibənin fakturasını Rusiyaya kəsməkdən ötrü Kremlin adamı olan Koçaryanın məhkəmə işini bərpa etdi. Paşinyan həmçinin gələcək rəqibini sıradan çıxardaraq, qərbə mesaj vermək istəyir: Yeni Rusiyayönümlülərin hakimiyyətə gəlməsini istəmirəm. Ona görə də məni dəstəkləyin”.

**Yeganə Bayramova**



# Daha 949 nəfər koronavirusdan sağalıb

## 305 nəfər yoluxub, 10 nəfər vəfat edib

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 305 yeni yoluxma faktı qeydə alınıb, 949 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan ”Şərq”ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 10 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 227 696 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 216 720 nəfər müalicə olunaraq sağalıb, 3 032 nəfər vəfat edib, aktiv xəstə sayı 7 944 nəfərdir.

*Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 6 915, ötən müddət ərzində isə ümumilikdə 2 328 507 test aparılıb.*







# “Şuşanın havasındandır...”

## Bəyimxanım Cavanşir-Verdiyeva: “Görürsüz, şəhərə ayaq basan əsgərlərimizin hamısı oxuyurdu”

Mayın 7-si idi. Yuxuda gördüm Şuşadayam... Ayağımın altında Şuşanın daş yoludu. Şuşanın daşları da başqadı. Yağış yağanda par-par parıldayır. İnanmadım. Başımı qaldırdım, başımın üstündə Gəncə qapısını gördüm, bilirsiz bəlkə də, Şuşaya bir neçə tərəfdən giriş var, biri də Gəncə qapısındandı, dedim, ay Allah, mən Şuşadayam?!. Yuxumu Zöhrə xanıma danışdım (Zöhrə Abdullayevanı nəzərdə tutur - red.) . O da Şuşalıdı axı... O vaxt hələ Şuşa işğalda idi. Noyabrın 8-i Şuşa azad olundu. Deməli, Şuşa mənə yuxumda xəbər vermişdi, azad olacağını...





**Xan Şuşinskinin - Xan əminin qızı - Bəyimxanım Cavanşir-Verdiyeva danışır bunları. Daha bu xanıma Xan qızı deyə müraciət edəcəyik.** Əvvəldə görkəmli sənətkarımız Xan Şuşinskinin adını ona görə xatırlatdıq ki, Şuşanın Xan qızı Natəvanı var. Bu da Azərbaycan üçün bir fəxarət, həm də bir lütfdür. Bir Xan qızı tarixdən bizi boylanırsa da, biri aramızdadır. Allah can sağlığı versin. Xan qızı adına layiqdir Bəyim xanım. Davranışı, nəzakətli danışığı, təmkini daxili mədəniyyətinin alicənab nəslə mənsub olmasının göstəricisidir, zahiri də bu göstəriciləri tamamlayır. Məlumdur ki, Xan Şuşinski Pənahəli xanın soyundandı. Soyadı Cavanşir olub. Sonra, təbii sovetləşmə zamanı xan soyunu arxa plana keçirməli olub, görkəmli xanəndəmiz, muğam ustadımız Xan əmi də Şuşinski təxəllüsünü seçib. Bəyimxanım bunları efirdə, verdiyi müsahibələrdə danışıb. Bizim ona budəfəki müraciətimiz ”Şuşanı necə görmək istərdiniz?” mövzusu ətrafında fikirlərini dinləmək istəyimizlə bağlı idi. O da ürəyindən keçənləri dilə gətirdi:

- Əvvəla onu deyim ki, çox xoşbəxtəm. İllərin Şuşa həsrətinə son qoyuldu. Mədəniyyət mərkəzimiz, gözəl Şuşamız özümüzə qayıtdı. Mən cənab Prezidentə təşəkkür edirəm, öz qətiyyəti sayəsində, ordumuz gücü ilə Şuşanı Azərbaycana qaytardı. Mən şəhidlərimizin ruhu qarşısında, onları böyüdüb boya-başa çatdıran valideynləri qarşısında, qəhrəman əsgərlərimizin, Şuşamızı güllədən, silahdan da ziyadə yalın əllə, ürəklərindəki təpərlə azad edən əsgərlərimizin qarşısında baş əyirəm. Bundan böyük xoşbəxtlik təsəvvür etmirəm. Çox sevinirəm...

**- Bəyimxanım, cənab Prezident Şuşanı mədəniyyət mərkəzi elan etdi. Bir sıra işlərin görüləcəyini bəyan etdi. ”Vaqif Poeziya günləri”nin, ”Xarıbülbül” festivalının bərpa olunacağını söylədi və bir çox layihələrin icra olunacağının anonsunu verdi. Sadəcə, istədik, sizin də fikirlərinizi öyrənək. Bir şuşalı kimi, həm də Xanın qızı kimi ürəyinizdən keçənləri bizimlə bölüşəsiniz. Şuşanı necə görmək istərdiniz?**

- Pənahəli xan Şuşanın təməlini qoyanda bunu yalnız bir istehkam, qala olaraq nəzərə almayıb. Pənahəli xan Şuşanın həm də məskunlaşma yeri kimi təməlini ”atıb”. Demək, Şuşa qalasına dövrün görkəmli sənətkarlarını, musiqiçiləri, hər sahənin bilicilərini, ziyalıları toplayıb, həm də zahirən surəti gözəl insanları toplayıb. Şuşa mədəniyyəti, Şuşa incəsənəti, Şuşa insanları belə formalaşıb. Ən yaxşıları seçib Şuşa üçün. Şuşa təbiətinin füsunkarlığı, təkrarsızlığı bəllidir. Görürsünüz, Şuşaya ayaq basan əsgərlərimizin hamısı oxuyurdu. Şuşanın havasındandı bu. Mən İsveçrənin Sürix şəhərində olmuşam, adətən tərifləyirlər oranın havasını, amma Şuşanın havası orda da yoxdu. Şuşanın havası ancaq Şuşadadı. Prezidentimizin dediyi kimi, Şuşa abadlaşacaq, dirçələcək. Biz Şuşanı tanıtmalıyıq, dünyanın mədəniyyət mərkəzi kimi tanıtmalıyıq, təkcə Azərbaycanın, ya da Qafqazın deyil. Mən bir dəfə demişəm, Şuşa üçün Qafqazın konservatoriyası deyirlər, Şuşa təkcə Qafqazın deyil, bütün Şərqin konservatoriyasıdır. Şuşanın yetişdirdiyi görkəmli şəxsiyyətlər saymaqla bitməz...

**- Bəyimxanım, hamımız Prezidentin Şuşaya səfərini izlədik. Xan qızı Natəvanın, Üzeyir bəyin, Bülbülün abidələri Şuşaya qayıtdı, Prezident, birinci vitse-prezident Mehriban xanım da abidələrin açılışını etdilər. Təbii ki, abidələr layiq olduqları yerdə qoyulacaq, ev-muzeylər də bərpa ediləcək. Başqa nələrin edilməsini istərdiniz? Fikrinizdə nəsə varmı?**

- Mən düşünürəm ki, Şuşada konservatoriya açılmalıdır. Həm də paytaxtdakı Azərbaycan Milli Konservatoriyasının filialı deyil, birbaşa konservatoriyanın özü. Çünki paytaxtdakı konservatoriyanın əsasını qoyan dahilər elə Şuşalıdılar. Milli konservatoriyamızın binası Bakıda idisə də, beşiyi Şuşa idi. Şuşada idi. İndi də elə olmalıdır. Kök Şuşadır. Mənbə Şuşadadır. Məsəl var, Qarabağda analar segah üstə lay-lay deyir. Uşaqlar da şikəstə üstə ağlayırlar. Bunlar elə-belə, söz xatirinə deyilməyib. Şuşanın havasıdır oranın insanlarına segah, şikəstə oxutduran. Şuşada təbii ki, musiqi məktəbləri, bəlkə də musiqi kolleci olacaq. Amma konservatoriya mütləq olmalıdır. Azərbaycan musiqisi paytaxtdan yox, Şuşadan dünyaya yayılmalıdır. Şuşa təkcə musiqi, muğam beşiyi deyil. Yəqin bilirsiniz, Azərbaycan xalçaçılıq məktəbinin ustadı Lətif Kərimov da şuşalı olub. Azərbaycan xalça sənəti onsuz da dünyada məşhurdu. Amma biz Şuşanı həm də Azərbaycan-Qarabağ xalçaçılıq məktəbinin ayrılmaz bir parçası kimi tanıtmalıyıq. Şuşada xalçaçılıq məktəbi yaradılmalıdır və bu sənət növü inkişaf etdirilməlidir. Qarabağ mətbəxinin özü, tanınmağa layiqdir. Qarabağ mətbəxi bütün digər regionlardan fərqlənir. Öz xüsusiyyətləri olan bir mətbəxdir. Biz Şuşaya təkcə incəsənət, mədəniyyət mərkəzi kmi deyil, həm də elm ocağı kimi baxmalıyıq. Azərbaycanın görkəmli alimlərini yetirib Şuşa torpağı. Qəhrəmanlar yetirib bu torpaq.

**- Məsələn, Qəbələdə beynəlxalq musiqi festivalları keçirilir. Son bir ili nəzərə almasaq, pandemiya səbəbindən, neçə illərdir Qəbələ qonaqlar qarşılayır. Belə səpkili festivallar da yəqin ki, Şuşada təşkil olunacaq.**

> **“Mehriban Əliyeva çox zövqlü xanımdır, inanıram ki, Şuşanın dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməsində əsas aparıcı qüvvə olacaq"**

- Sözsüz. Üzeyir bəyin, Zülfüqar bəyin, Niyazinin, Süleyman Ələsgərovun... adlarını sadalaya bilməyəcəyim neçə-neçə dahi sənətkarımızın xatirəsinə musiqi festivalları keçirilə bilər. Atam Xan Şuşinskinin bu il 120 illiyidir. Onun da ruhu şaddır. Doğma Şuşasına doğma sahibləri qayıdıb. Xan Şuşinskinin də yubiley tədbirləri yəqin ki, keçiriləcək. Mehriban xanım Əliyeva çox zövqlü xanımdır. Mən inanıram ki, muğam sənətimizi, milli-mənəvi dəyərlərimizin qorunmasında bilavasitə iştirak edən Mehriban xanım Şuşanın dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməsində əsas aparıcı qüvvə olacaq. Şuşa muzeylər, sənətkarlıq şəhərinə çevriləcək.

**- Həm şuşalılar, həm də ümumən qarabağlılar, işğaldan azad edilmiş bölgələrin sakinləri deyir ki, yurdumuza qayıdanda tanış mənzərələri görmək istəyirik. İlk baxışda, ilk addımda buranın bizim vaxtilə tərk etdiyimiz yurd yerimiz olduğunu yenə görkəm istəyirik. Necə etmək olar ki, Şuşaya yol alan adam məhz Şuşaya ayaq basdığını hiss etsin? Şəhərin girişindəki məlum ”Şuşa yazısından savayı...**

- Gəncəyə gedənlər oranın Nizami yurdu olduğunu irəlilədikcə hiss edirlər, Nizaminin ”Xəmsə” qəhrəmanları insanları qarşılayır, yola salır. Demirəm, Şuşaya gəlib-gedəni Üzeyir bəy, Pənahəli xan, yaxud Xan qızı Natəvan qarşılasın. Çünki Şuşanın o qədər görkəmli şəxsiyyətləri var ki, hamısının abidəsini qoymaq, hamısını şəhərin girişində nümayiş etdirmək mümkünsüzdür. Amma indi müasir texniki vasitələr var, müxtəlif üsullarla işıqlandırma, nümayiş etdirmə, aydınlatma işləri aparmaq mümkündür. Elə bir layihə olmalıdır ki, özündə bütün Qarabağı əks etdirsin və Şuşa da daxil, bütün Qarabağın Azərbaycana aid olduğunu əks etdirsin. Milli ornamentlər mütləq olmalıdır. Şuşanın alınmasında igidlik göstərənlərin xatirəsinə abidə-kompleks mütləq olmalıdır. Şuşa unikal şəhərdir. Biz bu unikallığı qoruyub saxlamalıyıq. Və dünyaya göstərməliyik. Şuşanın təbiəti görün necə məxsusidir ki, xarıbülbül çiçəyi yalnız orda bitir. Şuşa işğal olunmuşdu, təbiət də küsmüşdü, xarıbülbül də küsmüşdü. İndi Şuşanın əzəli sakinləri qayıdır, xarıbülbül yenə çiçək açacaq.

**- Hazırlaşırsınız, Şuşaya getməyə?**

- Əlbəttə, icazə verilən kimi gedəcəyik.

**- Eviniz qalır?**

- Yox. Dağıdılıb. Babamın 3 kəndi olub Şuşa ətrafında. Sonra təbii ki, ailənin əlindən alınıb. Sonralar atam Şuşada Üzeyir bəyin qardaşı Zülfüqar bəyin evini almışdı. Üzeyir bəyin evinin qonşuluğunda 2 mərtəbəli ev idi. Çuxurməhlə adlanan yerdə. Evimizə qonaqlar çox gəlirdi. Ümumiyyətlə, Şuşada hansı evin yanından keçirdin, mahnı, musiqi sədaları gəlirdi...

**- Səhv etmirəmsə, siz Xan Şuşinski Fondunun rəhbərisiniz...**

- Bəli. Fond 10 ildir fəaliyyət göstərir. Bizim xarici səfərlərimiz olub. İngiltərə, Fransa, İtaliya, Avstriyada səfərdə olmuşuq. Sərgilər, konsertlər təşkil etmişik. Həmişə belə səfərlərə gedəndə Qarabağla bağlı kitablar, fotolar aparırdım özümlə, ürək ağrısı ilə sərgilər təşkil edirdik. Şükür Allaha ki, qalib ölkənin vətəndaşıyıq artıq. İnanın, Prezidentin Şuşaya səfərini göz yaşlarıyla izləyirdim, həm də qürurlanırdım ki, Şuşa artıq bizimdir. Biz ora qayıtmışıq.

**Məlahət Rzayeva**

# İran Azərbaycanda yeni körpü salır

**"Embarqolardan, siyasi münasibətlərinə görə basqılardan əziyyət çəkən İran müəyyən mənada vəziyyətini daha da yaxşılaşdırmağa çalışır"**



Azərbaycan və İran arasında Astara sərhəd gömrüyündə yeni avtomobil körpüsü tikiləcək. Bunu İranın yol və şəhərsalma naziri Məhəmməd Eslami Azərbaycan baş nazirinin müavini Şahin Mustafayevlə görüşdə deyib.

M.Eslaminin sözlərinə görə, bununla əlaqədar gələn ay müqavilə imzalanacaq və Astarada körpü və terminalın təməli qoyulacaq. O, əlavə edib ki, hazırda Astarada mövcud olan avtomobil körpüsü iki ölkə arasında məhsul mübadiləsi və tranziti üçün yetərli deyil. İranlı nazir qeyd edib ki, yeni körpü və terminal vasitəsilə Bakı-Astara magistral yolu İranın Ərdəbil-Astara-Rəşt magistral yoluna birləşəcək. M.Eslami qeyd edib ki, Azərbaycan vasitəsi ilə digər ölkələrə çıxış İran üçün böyük fürsətdir. Bu baxımdan Şimal-Cənub Nəqliyyat Dəhlizinin aktivləşdirilməsi diqqət mərkəzindədir.

**Məsələ ilə bağlı danışan iqtisadçı-ekspert Razi Abasbəyli "Şərq"ə açıqlamasında qeyd edib ki, bu layihənin icra edilməsi Azərbaycandan çox İrana lazımdır.** R.Abasbəyli vurğulayıb ki, Azərbaycan və İran arasında Astara sərhəd gömrüyündə yeni avtomobil körpüsü hazırda mövcuddur, lakin istifadədə olan körpü ticarət əlaqələrində ötürücülük qabiliyyəti baxımından o qədər əlverişli deyil: "Məhz elə bu səbəbdən də Bakıdan başlayan Astara magistralının yeni inşa edilməsi nəzərdə tutulan körpü vasitəsilə İranın Ərdəbil-Astara-Rəşt magistral yoluna birləşdirilməsi planlaşdırılır. Məhz bu layihə vasitəsilə də İran Azərbaycanın coğrafi potensialından yararlanmaq istəyir. Belə ki, Şimal-Cənub Nəqliyyat Dəhlizinin bir qədər də aktiv loqistik statusa gətirilməsi, onsuz da ağır durumda olan, embarqolardan, siyasi münasibətlərinə görə basqılardan əziyyət çəkən İran müəyyən mənada vəziyyətini daha da yaxşılaşdırmağa çalışır. Düzdür, rəsmi olaraq 2020-ci ildə Azərbaycanla İran arasında ticarət dövriyyəsində azalma müşahidə edilməyib. Buna baxmayaraq vətəndaşların sərhədlərdən keçərək səfər etməməsi İran üçün böyük iqtisadi itkilərə səbəb olub. Təkcə 2019-cu ildə Azərbaycandan İrana tibbi məqsəd üçün 200 mindən çox vətəndaşımız səfər edib. 2020-ci ildə bu rəqəm demək olar ki, sıfıra bərabər olub. Bundan başqa kiçik ticarət dövriyyəsi üzrə göstəricilər də sıfırlanıb. Belə bir durumda Gürcüstan, Türkiyə, Rusiya kimi bazarlara qədər gedib çıxa biləcəyini düşünən İran tərəfi yeni körpünün inşası məsələsində daha çox maraqlı görünür".

**İqtisadçı-ekspert layihənin Azərbaycan üçün də xüsusi iqtisadi əhəmiyyətinin olduğunu qeyd edib:** "Bu, ilk növbədə İranla ticarət əlaqələrini bir qədər də inkişaf etdirməklə, Azərbaycanın tranzit potensialını yüksəltməklə bağlıdır. Azərbaycanın əsas müəllifi və ev sahibi olduğu Şimal-Cənub-Qərb transit-logistika marşrutlarında iştirakçılardan biri olaraq İran da pay sahibinə çevrilir. Azərbaycan bu tranzitlər üzrə daha çox hərəkət iştirakçısı cəlb etməkdə, regiondakı iqtisadi və geosiyasi gücünü bir qədər də artırır".

**Aynurə Pənahqızı**



## Uzunluğu 101 kilometrdir

### Şuşaya çəkilən "Zəfər yolu" sentyabr ayınadək istifadəyə veriləcək

**Dövlət başçısının tapşırığına əsasən, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən Şuşaya çəkilən yolun genişləndirilərək II texniki dərəcəyə uyğun inşası davam etdirilir.**

AAYDA-dan "Şərq"ə bildirilib ki, sözügedən yol həm də, şəhidlərimizin qanı ilə yazdığı şanlı tarixin şahididir. Müzəffər Ordumuz məhz həmin yolla Şuşa şəhərinə daxil olduğundan bu yolun həm də, rəmzi mənası, mənəvi önəmi var. Məhz bu səbəbdən Prezident İlham Əliyev Şuşaya səfəri zamanı uzunluğu 101.5 km olan bu yolu "Zəfər Yolu" adlandırıb.

Dövlət başçısının tapşırığına əsasən, "Zəfər yolu" boyunca tikinti işlərinin birinci mərhələsi yekunlaşdırılıb. Cəmi 2 ay ərzində sözügedən yol genişləndirilib, yeni torpaq yatağı inşa edilib. Artıq "Zəfər yolu" ilə rahat gediş-gəliş təmin olunub. Bu ilin sentyabr ayınadək isə yolun tam olaraq 2 hərəkət zolağı enində asfaltlanaraq istifadəyə verilməsi nəzərdə tutulur.

Buna paralel olaraq dövlət başçısının Füzuli rayonuna sonuncu səfəri zamanı təməli qoyulan, Füzuli şəhərindən başlayaraq Şuşa şəhərinə qədər uzanan və yeni trassa üzrə hazırlanmış layihə əsasında I texniki dərəcəli magistral avtomobil yolunun tikintisinə də start verilib.

Yeni layihəyə əsasən, çətin relyefə malik olan ərazilərdə, dolaylarda inşa ediləcək körpü və tunellər hesabına yolun uzunluğu qısalaraq 84.6 km təşkil edəcək. İlkin hesablamalara əsasən, inşa ediləcək tunellərin ümumi uzunluğu təqribən 3 km olacaq. Bundan başqa yeni trassa üzrə müxtəlif səviyyəli yol qovşaqlarının inşası da nəzərdə tutulur.

# Qars hərbi təlimlərində mühüm mesaj var

"Qarşıda gözlənilən Türkiyə-Azərbaycan hərbi təlimləri vasitəsilə Türkiyə iki vacib problemi həll edir: birincisi, Ərdoğan dünyaya regionumuzda onun artıq ən vacib hərbi amil olduğunu, eyni zamanda Azərbaycana xidmət edən, silahlı qüvvələri də türk marağına xidmət edən bir dövlət olduğunu göstərməyə davam edir". Bunu erməni politoloq Hrant Melik-Şahnazaryan deyib. Şahnazaryan qeyd edib ki, yeni müharibə təhlükəsi açıq bir reallıqdır.

"Növbəti Türkiyə-Azərbaycan hərbi təlimləri yeni və dünya müharibəsinin döyüş çağırışıdır? Yeni müharibə təhlükəsi açıq bir reallıqdır" - deyə o, bildirib.

**Mövzuya münasibət bildirən politoloq Natiq Miri "Şərq"ə açıqlamasında bildirib ki, hərbi təlimlərin Ermənistanla sərhəddə keçirilməsi həm Ermənistana, həm də Rusiyaya, o cümlədən qonşu İrana bilavasitə mesaj ola bilər.** Çünki məhz Türkiyənin siyasi dəstəyi fonunda Azərbaycan 44 günlük Vətən müharibəsində uğur qazanaraq Qarabağ torpaqlarının böyük əksəriyyətini azad etdi: "Qars vilayətində bu iki qardaş ölkənin yenidən təlimlər keçməsi Azərbaycan və Türkiyənin ayrılmaz birlik olduqlarını dünyaya bir daha nümayiş etdirir. Yəni bu məsələdən narahat olan ölkələrə verilən bir siyasi mesajdır. Əlbəttə ki, məsələnin texniki tərəfləri də mövcuddur. Çünki Azərbaycan Ordusunun peşəkar səviyyədə mövcud olması üçün bu cür hərbi təlimlərə ehtiyacı var. Bu gün müasir müharibələrdə bir çox texnikaların, eyni zamanda müharibələrin əsas qüvvəsi olan hava qüvvələriinin peşəkarlığına xüsusi önəm verilirr. Bu yöndə Türkiyə dünya dövlətləri içərisində ən öndə gedən dövlətlərdən biridir. Erməni siyasətçilərinin fikri başadüşüləndir. Bu həm də müharibədən dərhal sonra Ermənistana və onu müdafiə edən Fransa kmi



**"Azərbaycan və Türkiyəyə qarşı hansısa pis niyyətdə olmaq istəyənlər gələcəkdə onları birgə görəcəklər"**

ölkələrə dolayısı yolla siyasi mesajdır".

**Politoloq əlavə edib ki, hərbi təlimlər həm də açıq mesajdır:** "Azərbaycan və Türkiyəyə qarşı hansısa pis niyyətdə olmaq istəyənlər gələcəkdə onları birgə görəcəklər: "Əlbəttə ki, bu da Azərbaycanın Qarabağ masasında gələcəkdə müəyyən mənada mövqelərini gücləndirən amildir. Bildiyimiz kimi, hələ də Qarabağın dağlıq hissəsində ermənilərin yaşadığı Xankəndi və digər bölgələrdə bizi narahat edən məqamlar mövcuddur. Çünki bu bölgələrə Azərbaycan Ordusu nəzarət etmir. Burada da baş verən proseslər nəzarətimizdə olmadığı üçün əlbəttə ki, gələcəkdə bizi hansı təhlükələrin gözləyəcəyi barədə əminlik yaratmır. Bu da Azərbaycan ictimaiyyətini ciddi şəkildə narahat edir. Rusiyanın Xarici işlər nazir Lavrovun son açıqlamasında Azərbaycan ictimaiyyətini son dərəcə narahat edən məqamları dilə gətirdi. Dağlıq Qarabağın statusu məsələsinin gələcəkdə məhz Minsk qrupu həmsədrlər institutu çərçivəsində həllini vurğulamaqla dolayısıyla Lavrov ermənilərin meydanına yenidən top atdı. Bu da əlbəttə ki, Azərbaycanın Qarabağ üzərində ərazi bütövlüyünə şübhə və təhlükələr yaradır. Ona görə də düşünürəm ki, Qarsda keçirilən bu hərbi təlimlər həm də dolasıyla Rusiyaya mesajdır ki, biz Qarabağda onun istədiyi kimi davranışlara imkan verməyəcəyik. Bu məsələdə Azərbaycan heç də tək deyil. Fikrimcə, bu, xüsusi önəm daşıyır. Türkiyə Xarici işlər naziri Mövlud Çavuşoğlunun Lavrovdan öncəki açıqlaması da buna sübutdur ".

**Aynurə Pənahqızı**

**Ermənistan-Azərbaycan münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Biz eşitdiyimizə yox, gördüyümüzə inanırıq

## Lavrovun arzu və istəklərinin Bakıya heç bir aidiyyəti yoxdur

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Rusiyanın Xarici işlər naziri Sergey Lavrov Ermənistan mediasında hərarətlə müzakirə olunan Dağlıq Qarabağın "statusu" məsələsinə aydınlıq gətirib. 2020-ci ilin yekunlarına dair mətbuat konfransı keçirən XİN rəhbəri deyib ki, "status"la bağlı məqam üçtərəfli Bəyanata şüurlu şəkildə salınmayıb.**

Onun sözlərinə görə, Qarabağın ermənilər yaşayan bölgəsi Rusiya sülhməramlı kontingentinin cavabdehliyində olan zonadır: ”Bakı və İrəvanla təmaslarımızda məhz bundan çıxış edirik. Dağlıq Qarabağın statusu məsələsi ziddiyyətlidir. Üç lider tərəfindən qərar verilib ki, bu məsələ bir tərəfə qoyulsun, sonraya, gələcəyə saxlanılsın, bununla ATƏT-in Minsk qrupu həmsədrləri məşğul olmalıdırlar”. Lavrov Ermənistan rəsmilərinin Dağlıq Qarabağa səfərlərinə də münasibət bildirib. Mətbuat konfransında APA-nın Moskva müxbirinin ”Azərbaycan tərəfi Ermənistan rəsmilərinin Dağlıq Qarabağa səfər etməsinə etiraz edir. Rusiya sülhməramlıları bu məsələni necə nizamlayacaq” sualına cavabında nazir bu gedişgəlişdə problem görmədiyini söyləyib. XİN başçısı vurğulayıb ki, 10 noyabr Bəyanatında Rusiya sülhməramlılarının nəzarətində olan Laçın dəhlizi ilə Ermənistanla Dağlıq Qarabağ arasındakı əlaqənin təmin olunacağı öz əksini tapıb. Lavrovun qənaətincə, Dağlıq Qarabağla Ermənistan arasında əlaqəni heç kim heç vaxt inkar etməyib: ”Məhz buna görə Laçın dəhlizi konsepsiya kimi heç kim tərəfindən inkar edilməyib. Ona görə də bu, azərbaycanlı qonşularımız da daxil olmaqla bütün tərəflərin razılığının predmetidir. 10 noyabr bəyanatında Laçın dəhlizinə paralel olaraq yeni dəhlizin, eyni zamanda Azərbaycanın qərb rayonları ilə Naxçıvan arasında dəhlizin yaradılması da əksini tapıb. Ermənistan rəsmiləri Dağlıq Qarabağdakı humanitar fəaliyyətə cəlb olunub. Ona görə də bu əlaqələrə mane olmaq üçün bir səbəb görmürəm”.

Bununla yanaşı, Lavrov Rusiyanın Dağlıq Qarabağı öz tərkibinə qatmaq niyyətində olmadığını da bildirib. XİN rəhbəri qeyd edib ki, Dağlıq Qarabağın müstəqilliyini heç kim, o cümlədən Ermənistan özü də tanımayıb: ”Bizim isə buna yaxın fikrimiz belə yoxdur. Hesab edirik ki, regionun bütün məsələləri burada yerləşən ölkələr tərəfindən, ilk növbədə Azərbaycan və Ermənistan arasında həll olunmalıdır. Biz bu cür həll yolunu tapmağa yardım etməyə davam edəcəyik. Bu həll regionda sülhü və təhlükəsizliyi, ən əsas da burada hər zaman yaşayan insanların təhlükəsizliyini təmin edəcək”.

Lavrov Ermənistan rəsmilərini Qarabağda siyasi bəyanatlar ver-

### "Rəsmi Bakı "statusun" müzakirə olunacağı hər hansı görüşdə iştirak etməyəcək"

məkdən çəkinməyə çağırmağı da unutmayıb. Nazir vurğulayıb ki, erməni rəsmilərinin Qarabağla bağlı olduqca siyasiləşmiş bəyanatlar verməsi gərginlik yaradır. Baş diplomatın fikrincə, bu cür bəyanatlar verməkdən qaçmaq daha yaxşı olar: ”44 günlük müharibə başlanana qədər bu cür bəyanatların şahidi olduq. ”Yeni müharibə, yeni ərazilər” kimi emosional bəyanatların nəticəsini gördük. İndi Azərbaycan və Ermənistan rəhbərliyi arasında təmasların qurulmasına, tərəflər arasında etimad mühitinin yaranmasına diqqət yönəltməliyik. Bu, 11 yanvar Moskva görüşünün əsas məsələlərindən biridir. Ümid edirəm, emosiyalar ikinci plana keçəcək. İndi Dağlıq Qarabağın ”status”nun prioritet məsələ kimi irəli sürülməsi üçün uyğun vaxt deyil”.

Hər zaman olduğu kimi Rusiya xarici işlər naziri yenə iki tərəfə oynayıb. Nazir həm Yerevana, həm də Bakıya hesablanmış bəyanatlar səsləndirib. Lakin XİN rəhbərinin Dağlıq Qarabağ barədə bəzi fikirləri Azərbaycan ictimaiyyətində birmənalı qarşılanmayıb. Əlxüsus, Lavrovun ”status” məsələsini yenidən gündəmə gətirməsi və Ermənistan rəsmilərinin Qarabağa sərbəst gəliş-gedişinin normal olduğunu iddia etməsi cəmiyyətdə narazılıq yaradıb.

Azərbaycanın zəfəri ilə yekunlaşan 44 günlük haqlı savaşımız diplomatiya meydanında da uğura çevrildi. Prezident, Ali Baş Komandan İlham Əliyev işğala əsaslanan status-kvonu dəyişdirdi. Dövlət başçısı öz prinsipiallığını və qəti əzmini dünyaya nümayiş etdirərək böyük güclər və Ermə-

### “Sərhədlərimiz daxilində bütün qərarları Azərbaycan verəcək”

nistanın havadarları tərəfindən olan təzyiqlərin öhdəsindən layiqincə gəlməyi bacardı. Döyüş meydanında məğlubiyyətini dərk edən Yerevan bəyan edilən şərtləri çarəsiz şəkildə qəbul etdi və kapitulyasiya şərtləri ilə razılaşmalı oldu. Ən əsası isə separatçıların ”respublika” və ”status” xəyalları birdəfəlik puç oldu. Ölkə rəhbəri İlham Əliyevin də bəyan etdiyi kimi Dağlıq Qarabağın ”status” məsələsi müzakirə mövzusu deyil və heç vaxt da olmayacaq. Prezidentin öz təbiri ilə desək, ”status cəhənnəmə getdi, gora getdi, gorbagor oldu”. Dövlət başçısı dəfələrlə açıq şəkildə vurğulayıb ki, nə qədər ki, o prezidentdir, ”status” olmayacaq. Prezident İlham Əliyev Şuşa səfərində də məsələyə yenidən toxundu və bildirdi ki, ermənilərin çirkin əməlləri həyata keçmədi və keçməyəcək: ”Qondarma ”parlament” də gorbagor oldu, ”status” da gorbagor oldu, cəhənnəmə getdi. Qarabağ Azərbaycandır!”. Ölkə başçısı Dağlıq Qarabağın ”status” məsələsinin onun gündəliyində olmadığını Moskvada keçirilmiş görüşdən sonra bir daha vurğulamış oldu. Xatırladaq ki, həmin görüşdə Ermənistan Baş naziri Nikol Paşinyan Dağlıq Qarabağın ”status”nun hələ də həll olunmadığını dilə gətirmişdi. Halbuki, Azərbaycan tərəfi İkinci Qarabağ müharibəsi zamanı və ondan sonra ”status”un müzakirə predmeti olmayacağını dəfələrlə bəyan edib. Yerevan isə hələ də bu məsələni öz gündəliyindən çıxarmadığını bildirib. Ermənistan Xarici işlər naziri Ara Ayvazyan Qarabağ münaqişəsinin tənzimlənməsinin ”erməni xalqının öz müqəddəratını təyin etməsinə əsaslandığını” söyləyib. Azərbaycan Xarici İşlər Nazirliyi bu bəyanatı ”Ermənistan xarici işlər nazirinin əsassız iddiası” adlandıraraq, Prezidentimizin ”status”u tarixin zibilliyinə göndərdiyini Ermənistan rəsmilərinə xatırladıb. Dövlət başçısı İlham Əliyev Ermənistan rəsmilərinin Qarabağa qanunsuz səfərlərinə də sərt etirazını bildirib. Ölkə rəhbəri bu cür qanun pozuntularının ciddi nəticələrinin olacağı barədə Ermənistana xəbərdarlıq edib. Yəni Lavrov erməni rəsmilərinin Azərbaycan torpaqlarına gəliş-gedişini ”normal” saysa da, rəsmi Bakının bu məsələ ilə bağlı konkret mövqeyi də ortadadır.

**Millət vəkili, Milli Cəbhə Partiyasının sədri Razi Nurullayev ”Şərq”ə deyib ki, Rusiya xarici işlər nazirinin yanaşması birbaşa Kremlin mövqeyi deməkdir. Deputatın sözlərinə görə, mütəmadi Prezident Vladimir Putinlə görüşən Sergey Lavrov ümumən Moskvanın proseslərə baxışını ifadə edir.** Lakin parlament üzvünün fikrincə, bəzi məsələlərdə Rusiyanın xarici işlər naziri emosiyalarını saxlaya bilmir: ”XİN başçısı özünün şəxsi düşüncələrinin 20-30 faizini rəsmi bəyanata əlavə etməyi unutmur. Azərbaycan birmənalı olaraq öz sərhədləri daxilində istənilən qərarı verə bilər. Lavrovun arzu və istəklərindən asılı olmayaraq, sərhədlərimiz daxilində bütün qərarları Azərbaycan verəcək. Qəti qərarımız artıq ölkə rəhbərliyi və cənab Prezident İlham Əliyev tərəfindən dəfələrlə səsləndirilib. Rəsmi Bakının mövqeyi dəyişməzdir. Məncə, Rusiya xarici işlər naziri bu cür məsələləri dilə gətirməklə Azərbaycan ictimaiyyətinin nəbzini yoxlamaq niyyəti güdür. Moskva görmək istəyir ki, Azərbaycan hökuməti və ictimaiyyəti ”status” məsələsinə necə reaksiya verəcək. Bu cür həssas məsələlərdə iqtidarın, müxalifətin və bütövlükdə xalqın mövqeyi bəllidir. Lavrovun dedikləri Azərbaycan üçün əsas ola bilməz. Rəsmi Bakı ”statusun” müzakirə olunacağı hər hansı görüşdə iştirak etməyəcək”.

*R.Nurullayev qeyd edib ki, Rusiya bölgədə sülhməramlı qüvvələrin qanuni missiyası çərçivəsində fəaliyyət göstərməlidir:* ”Dağlıq Qarabağda son nöqtəni Azərbaycanın şanlı Ordusu qoyub. Bundan sonrakı danışıqlar prosesi bizim şərtlərimiz fonunda cərəyan edəcək. Digər əməkdaşlıq formalarının müzakirəsi üçün Ermənistana məxsus bütün silahlı qruplaşmalar, terrorçular Qarabağdan çıxarılmalı, Yerevan Azərbaycanın ərazi bütövlüyünü rəsmən tanıdığını bildirməlidir”.

**AMİP təmsilçisi, politoloq Əli Orucov da ”Şərq”ə bildirib ki, Rusiyanın Xarici işlər naziri Sergey Lavrovun mətbuat konfransında səsləndirdiyi fikirlər narahatlıq doğurur. Partiya funksionerinin sözlərinə görə, əslində nazirin toxunduğu məqamlarla bağlı narahatlıq əvvəldən mövcuddur:** ”Rusiya və ATƏT-in digər həmsədri Fransa ”status” məsələsini yenidən aktuallaşdırmağa səy göstərirlər. Yaxud müəyyən müddət sonra yenidən qayıdacaqlarını şüurumuza yeridirlər. Problem ondadır ki, Rusiya sülhməramlılarının Qarabağda fəaliyyəti qənaətbəxş hesab olunmur və onların konkret fəaliyyəti müəyyənləşməyib. Lavrov bəyan edir ki, sülhməramlıların nəzarət etdiyi bölgəyə dolayısı yolla cavabdeh Rusiyadır. Bu cür açıqlama diplomat üçün yolverilməzdir. Qarabağın bütün əraziləri birmənalı Azərbaycanın tabeçiliyində və nəzarətində olmalıdır. Beynəlxalq ictimaiyyət tərəfindən tanınmış ərazilərimizə yeganə cavabdeh rəsmi Bakıdır. Rusiya sülhməramlılarının əsas missiyası atəşkəsə nəzarət funksiyasıdır. Azərbaycanın icazəsi ilə əlavə olaraq humanitar yardımların edilməsinə də imkan yaradılır. Ancaq sülhməramlılar səlahiyyətlərindən kənara çıxmamalıdır”.

**Ə.Orucovun fikrincə, Rusiya XİN başçısının açıqlamasından belə çıxır ki, Yerevandan Qarabağa qanunsuz səfərlər məhz Moskvanın ”icazəsi” ilə reallaşıb:** ”Azərbaycan öz ərazilərinə icazəsiz giriş-çıxışlara niyə təmkinli yanaşmalıdır?! Lavrovun özbaşına bəyanatlar verməsi inandırıcı deyil. Məncə, bütün ifadələr Kremllə razılaşdırılmış şəkildə gündəmə gətirilir. ”Status” məsələsinin ”dondurulması” mövqelərimizə ziddir. Növbəti üçtərəfli danışıqlarda ziddiyyətli bütün məqamlara tam aydınlıq gətirilməlidir. Rəsmi Bakı daha sərt mövqe ortaya qoymalı, ən əsası isə Türkiyə ilə hərbi müttəfiqliyi inkişaf etdirməlidir”.

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# "Akademiyada yaxşı alimlər də çalışır"



## Hamlet İsaxanlı: "Lakin o alimlər akademiyada işləyənlərin maksimum 10 faizini təşkil edirlər"

"Ötən illər ərzində dövlət büdcəsindən Azərbaycan Milli Elmlər Akademiyasına ayrılan vəsaitlər artırılsa da, akademiya özü qazanc əldə etməyib".
Bu sözləri AMEA-nın akademik-katibi, akademik Adil Qəribov deyib.

Akademik bildirib ki, Rusiya Elmlər Akademiyasına (REA) dövlət büdcəsindən 1,5 faiz həcmində maliyyə ayrılır və bunun əvəzində rusiyalı alimlər həmin məbləğin 1 faizi həcmində büdcəyə geri ödəniş edirlər: "Hazırda REA rəhbərliyi geri ödənişlərin həcminin artırılması istiqamətində daha çox səy göstərilməsinin tərəfdarıdır. Belarus Elmlər Akademiyasının 60 faizi özü tərəfindən, 40 faizi isə dövlət büdcəsindən maliyyələşir. Özbəkistan Elmlər Akademiyasında isə bu göstərici yarıyarıyadır".

Azərbaycanda elmə ayrılan vəsaitin 81-82 faizinin əməkhaqlarının ödənişinə sərf olunduğunu deyən A.Qəribov qalan vəsaitin isə müəssisələrin gündəlik tələbatlarına xərcləndiyini bildirib.

Bundan əlavə, "Elmin İnkişafı Fondu" və SOCAR-ın "Elm Fondu"ndan qazanılan qrantlar hesabına alınan cihazların səmərəli istifadə göstəricisinin 20 faizi ötmədiyi vurğulanıb: "Son illərin təhlili göstərir ki, bir neçə institut xaricində heç bir əməli işlər aparılmayıb. AMEA-da yeni, gənc kadrların yetişdirilməsinə ehtiyac var. İnstitutlarda gənclərin sayı 10-20 faizdən çox deyil. Akademiyada fundamental sahə yetəri qədər inkişaf etməyib".

"Belə olan halda dövlət nə üçün nəhəng bir akademiya saxlamalıdır, onun dövlətə xeyri və faydası nədən ibarətdir?"

**Xəzər Universitetinin təsisçisi və rektoru, professor Hamlet İsaxanlı məsələ ilə bağlı fikirlərini "Şərq"ə bildirib:**

"Məsələ belədir ki, dünyada Elmlər Akademiyası sistemi iki cürdür. Onlardan biri sosializm sistemində mövcud olub ki, məhz SSRİ bundan istifadə edib və Azərbaycan da bu sistemi davam etdirir. Yəni çoxlu elmi-tədqiqat institutları var və dövlət də onları maliyyələşdirir. Bu növ elmlər akademiyaları kapitalist dünyasının heç birində yoxdur. Amerikada, İngiltərədə, Albaniyada, Fransada və digər yerlərdə isə akademiya belədir ki, bir dəstə elm adamının hərəsinin işlədiyi bir universiteti var, onlar bir yerə yığışıb müəyyən kitablar yazıb nəşr edirlər, jurnallar dərc edirlər və dövlətdən də heç nə almırlar.

SSRİ dağılandan sonra akademiyalarda böyük islahatlar oldu. Bunu birinci Baltik ölkələri, sonra isə Gürcüstan həyata keçirdi. Onlar dərs keçirilməsi və tədqiqatla universitetlər məşğul olduğu üçün akademiyanın elmi-tədqiqat institutlarını universitetlərə birləşdirdilər. Akademiya isə alimlərin bir növ klubudur.

Təəssüf ki, bizdə islahatlar olmadı. İslahatın kəskin pilləsi olaraq ixtisarlar aparılmalıdır. Eləcə də bu, kiçik bir təşkilat olmalıdır. Belə bir ağır vaxtda dövlətin belə bir təşkilatı maliyyələşdirməyə imkanı yoxdur, olsa belə bunu etməməlidir.

Dövlət heç ali məktəbləri maliyyələşdirmir. Bu dəqiqə dövlət universitetlərinin əksəri özünü saxlayır. Həmçinin, dövlətə də böyük həcmdə vergi verirlər. Belə olan halda dövlət nə üçün nəhəng bir akademiya saxlamalıdır, onun dövlətə xeyri və faydası nədən ibarətdir?"

*Professor, həmçinin, akademiyada həqiqətən də çalışan alimlərin sayının az olduğunu və ciddi islahatlar aparılmasının vacibliyini vurğulayıb:* "Heç şübhə yoxdur ki, orada yaxşı alimlər də çalışırlar. Lakin həmin alimlər o akademiyada işləyənlərin 5, maksimum 10 faizini təşkil edirlər. Yəni bu, 10 faiz təşkil edirsə, deməli, onların sayı da 10 dəfə azaldılmalıdır. Ona görə də akademiyada islahat həddindən artıq həyati və vacib məsələdir.

Açığı, mən anlamıram ki, dövlət niyə məcburi islahat aparmır? Bu reformları akademiyanın özü aparmalıdır, əgər apara bilmirsə, bunu dövlət özü həyata keçirməlidir".

**Ağarza Elçinoğlu**

## Azərbaycan Ordusunun şəhid olan hərbçisi Gəncədə dəfn edilib



**Azərbaycan Ordusunun şəhid olan əsgəri Novruz Haxverdiyev Gəncədə dəfn edilib.**

APA-nın yerli bürosunun məlumatına görə, Vətən müharibəsində Murov istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olan Azərbaycan Ordusunun əsgəri, 1996-cı il təvəllüdlü Haxverdiyev Novuz Əli oğlunun nəşi Daşkəsən rayonuna aparılıb. Şəhidin doğulduğu Alunitdağ qəsəbəsində keçirilən vida mərasimində rayon İcra Hakimiyyətinin rəhbərliyi, hüquq-mühafizə orqanlarının əməkdaşları, hərbçilər və rayon ictimaiyyəti iştirak edib.

Şəhid N.Haxverdiyev Gəncə Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

*Qeyd edək ki, N.Hacverdiyev Vətən müharibəsində itkin düşən hərbçilərdən idi.*

**Allah rəhmət eləsin!**

## Milli qəhrəmanlarımızın Qubadlıda olan məzar daşları bərpa edilir



**1993-cü ilin avqustunda Qubadlı rayonunun işğalı nəticəsində qəbirüstü abidələri dağıdılmış Azərbaycanın beş Milli Qəhrəmanının məzar daşları Qubadlı Rayon İcra Hakimiyyətinin daxili imkanları hesabına bərpa edilir.**

Azərtac xəbər verir ki, artıq Milli Qəhrəman Əliyar Əliyev, Aqil Məmmədov, Kərəm Mirzəyev, Bəylər Ağayev və Vasili Əliyevin Qubadlıda olan məzar daşları hazırlanıb və yaxın zamanda bərpa olunacaq.

*Qeyd edək ki, rayonun doqquz şəhid Milli Qəhrəmanından üçünün - Aslan Atakişiyev, Kazımağa Kərimov və Ələkbər Əliyevin məzarı Bakı şəhərində Şəhidlər xiyabanında, Şükür Həmidovun məzarı isə II Fəxri xiyabandadır.*

Yanvarın 25-dən etibarən hazırlıq kurslarının fəaliyyətinə də icazə veriləcək. Bu barədə Nazirlər Kabinetinin mətbuat katibinin rəhbəri İbrahim Məmmədov məlumat verib.

İ.Məmmədov deyib ki, Nazirlər Kabineti yanında Operativ Qərargahın karantin rejiminin yumşaldılmasına dair yanvarın 16-da qəbul etdiyi qərarda repetitor kurslarının fəaliyyətinə icazə verilməsi də nəzərdə tutulur. (Bu barədə həmin gün məlumat açıqlanmamışdı - red.) Qərara əsasən, fəaliyyət bərpa olunan iş və xidmət sahələrinin sırasında fərdi tədris və repetitor xidmətləri də var. Repetitorların fəaliyyətinə böyük qruplar halında məşğələlər aparmamaqla icazə verilir. Belə ki, hazırlıq qruplarında maksimum 9 şagird məşğul ola bilər, bundan artıq şagirdin məşğələlərə cəlb olunması karantin rejiminin pozulması hesab ediləcək.

# Repetitorlar zehni qabiliyyətlərini satıb pul qazanırlar

## Pandemiya qadağalarına baxmayaraq onlar işlərini davam etdirdilər



**Mövzu ilə bağlı təhsil eksperti Nabatəli Qulamoğlu "Şərq"ə fikirlərini bölüşərkən bidirib ki, bu günləri pandemiya səbəbindən tədrisdən geri qalan şagirdlərin əlavə hazırlığına ehtiyac var.** Təhsil eksperti vurğulayıb ki, artıq neçə müddətdir ki, məlum səbəblərdən ölkəmizdə distant təhsil keçirilsə də, bu metod şagirdlərin mövzunu mənimsəməsində o qədər də effektli olmayıb: "Repetitorluq fəaliyyətinə də məlum səbəblərdən dövlət tərəfindən müəyyən qadağalar qoyulub. Lakin buna baxmayaraq bu və ya digər şəkildə öz fəaliyyətini davam etdirən repetitorlara rast gəlmək mümkündür. Qeyd edim ki, elə ölkələr var ki, orda dövlət sektorunda güclü təhsil verilsə də belə, valideynlər uşaqlarını repetitorlar yanına göndərirlər. Məsələn, Yaponiyada bu praktika mövcuddur. Bizdə də valideynlər uşaqlarını əlavə olaraq hazırlıq kursu və ya repetitora göndərməyə üstünlük verirlər. Amma Finlandiyada demək olar ki, özəl məktəb belə yoxdur. Ona görə ki, orada vətəndaş cəmiyyəti var. Bizdə isə yoxdur. Orada heç kim camaatın gözünün qabağında çöp belə götürə bilməz və o zaman bütün cəmiyyət ayağa qalxar. Amma bizdə belə deyil. Bizdə repetitorlar öz məhsullarını korlamamaq üçün nə pandemiyaya, nə də ki, ekstremal hallara baxır. Yəni bu proses xeyli müddətdir ki, qadağalara baxmayaraq ölkəmizdə davam edir".

**Ekspert əlavə edib ki, repetitor öz zehni qabiliyyətini bazara çıxarır və onu bazarda sataraq əvəzində isə pul qazanır. Bununla da həm onun maddi təminatı ödənilir, həm də cəmiyyətə bilik verir:** "Məhz onların sayəsində abituriyentlər yüksək bal toplaya bilirlər. Əgər dövlət məktəblərin özəlləşməsinə imkan verərsə, o zaman repetitorlara heç bir ehtiyac qalmayacaq. Ümumiyyətlə, Azərbaycan cəmiyyətində təhsil özəl əllərdə olmadıqca təhsil sistemində heç bir inkişafdan söz gedə bilməz".

**Aynurə Pənahqızı**

# Afət Kərəmət Böyükçöllə duet oxumaq istəyir



## "Elə maraqlı, savadlı adamları çox sevirəm, çox istedadlı, qabiliyyətlidir"

O, "Şərq"ə söyləyib ki, həmin adam nə meyxanaçıdır, nə də müğənni: "Amma bilmirəm, onun səsi yaxşıdırmı. Yazıçıdır, şeir də yazır. Maraqlı insandır. O da Kərəmət Böyükçöldür. Səsi varsa, onunla duet ifa edə bilərəm (gülür).

Elə maraqlı, savadlı adamları çox sevirəm. Kərəmətin yaradıcılığını izləyirəm, ona böyük hörmətim var. Feysbuka onun statuslarını oxumaq üçün girirəm. Axşamlar 10 dəqiqəlik baxıram ki, görüm Kərəmət bəy nə paylaşıb. Çox istedadlı, qabiliyyətlidir. Bir gün zaman onun dəyərini verəcək. İndi qədri bilinmir. O, həm də zamanı qabaqlayan yazıçıdır. Heyif ki, Kərəmət bəyi dərk edə bilməyənlər var.

**"K.Böyükçölün kitablarını oxumusunuzmu" sualına müğənni belə cavab verib:**

"Bu yaxınlarda onun kitab satdığı parka yaxın yerdə çəkilişdə idik. Rəfiqəmə dedim ki, qayıdanda zəng vurub, Kərəmətin kitabından alacam. "Space TV"də Elçin Əlibəylinin qonağıydım. Çəkilişdən sonra həmin parka gedəcəkdim. Lakin texniki problemlərə görə qaldı. Həm də bilirsiniz ki, 3 saatlıq SMS-lə çölə çıxırdıq. Verilişin qonaqlarından biri 1 saat gecikdi. Mənim iki saatım qaldı, onu da verilişə sərf elədim. Evə ancaq çata bildim. Yenə də Kərəmət bəyin kitablarını oxumaq istəyirəm. İllərdir kitab oxumuram. Məktəb illərində mütaliə edirdim. Dünya ədəbiyyatından, Tolstoydan, Dümadan oxumuşam. Pandemiya dövründə də tanış ola bilmədiyim əsərlərin filmlərini izləyirəm. Yazıçılarla maraqlanıram.

**Müğənni onu da əlavə edib ki, bəzi televiziyalar onu K.Böyükçöllə debata çağırıb:** "Pəncü-şeş" mahnım yeni çıxan zamanlar Kərəmətlə debata dəvət etdilər. Soruşdum ki, digər qonaq kimdir? Dedilər, yazar Kərəmət Böyükçöl. O vaxt yaxşı tanımırdım. İnternetdə axtardım, "ANS" də dediyi şeirini gördüm (gülür). Dedim, zatən üstümə gələnlər çoxdur. Birdən verilişdə nəsə deyər, sonra "Tik-Tok"a düşərik. Debata çıxmadığım yeganə insan Kərəmət oldu. Qiyabi tanıdıqca təəssüfləndim ki, gərək dəvəti qəbul edərdim. İndi bildim, o, internetdə gördüyüm Kərəmət deyilmiş. Çox ədəbli-ərkanlı, müasir düşüncəli insandır. Məsələn, bəzi fikirləri mənim də ağlımdan keçir. Lakin dilə gətirsəm, insanlarda qıcıq yarada bilərəm. Kərəmət isə elə yazır ki, heç kim aqressiya göstərmir. Hamı razılaşır, onu dəstəkləyir. Bu da bir istedaddır".

**Samirə Ərəbova**

## "Deyir, nəslini biz kasıblar qoruyuruq"

### Pərvin Abıyeva: "Yardım etdiyim vaxt kasıbların evini görmüşəm. Elə evdə uşaq böyütmək istəyərsiz?"



**Bir müddət öncə aktrisa Pərvin Abıyeva "Heç bir qız kasıb oğlana ərə getmək istəməz" açıqlaması ilə gündəmə gəlib. Aktrisanın fikirləri birmənalı qarşılanmayıb. Əksəriyyət onu sərt tənqid edib. P.Abıyeva özünə yönələn bütün ittihamlara, iradlara cavab verib.**

*"Şərq"in məlumatına görə, o, bu haqda instaqram səhifəsində, canlı yayımda danışıb:* "Kimlərsə gözləyir ki, üzr istəyəcəm. Niyə? Öz şəxsi fikrimə görə? Yox, üzr istəməyəcəm. Demişəm ki, heç bir qız kasıb oğlana ərə getmək istəməz. Burda kasıblar barədə təqhiramiz söz işlətmişəmsə, ortaya çıxardın. Şəxsən bunu sübut edən adama 50 min manat verəcəm. Sözümün arxasındayam. Heç bir qız istəməz ki, həyat yoldaşı onu kasıb vəziyyətdə yaşatsın. Mən pandemiya dövründə ən az 70 yoxsul ailəni ziyarət etdim. Bunu niyə unutdunuz? Hansısa əsgərə video çəkdirirsiz. Onun işi şou-biznes adamına söz yollamaqdır? Əminəm ki, o əsgərin heç nədən xəbəri yoxdur. Deyir, nəslini biz kasıblar qoruyuruq. Bu nə deməkdir? Əmim Birinci Qarabağ müharibəsində iştirak edib. Əmim oğlu isə Vətən savaşında sizinlə birlikdə idi. Mənim nəslimdə əsgər gedən, müharibədə iştirak edən yoxdur? Mən kasıbçılıq da, pul da görmüşəm. Ona görə istəmirəm oğullarımız kasıb olsun, kimdənsə mədət umsunlar. Hər bir kişi qazanıb, ailəsini saxlamalıdır. Yardım etdiyim vaxt kasıbların evini görmüşəm. Necə yaşadıqlarını bilirəm. Elə evdə uşaq böyütmək istəyərsiz? O uşağı oxutmaq, gələcək qurmaq lazımdır. Söhbət oturub ondan-bundan pul güdəndən gedir. İnsanlar var ki, kasıb evdə, şam işığında oxuyub, həkim olur, ailəsinə çörək verir".

**Samirə**

## Nazirlik təkliflər hazırlayıb

### 15 mikrondan çox olan polietilen torbalar pulla satılacaq



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi qalınlığı bir qədər çox, yəni 15 mikrondan çox olan polietilen torbaların alıcılara pulla təklif olunması ilə bağlı təkliflər hazırlayıb.**

Trend-in məlumatına görə, bunu Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Ekoloji Siyasət şöbəsinin müdiri Rasim Səttarzadə "Ekspert saatı" proqramında bildirib. Onun sözlərinə görə, bu təklifin reallaşması polietilen torbaların, o cümlədən plastik materiallardan hazırlanan tullantıların azaldılmasına kömək edəcək.

## Azərbaycanda köhnə avtomobillərin utilizasiyası proqramı hazırlanıb



**Azərbaycanda köhnə avtomobillərin utilizasiyası proqramı hazırlanıb.**

Trend-in məlumatına görə, bunu Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Ekoloji siyasət şöbəsinin müdiri Rasim Səttarzadə "Ekspert saatı"nda deyib. O bildirib ki, "Azərbaycanda yol hərəkəti təhlükəsizliyinin təmin olunması üzrə Dövlət Proqramı"nda köhnə avtomobillərin utilizasiya proqramının hazırlanması və icra olunması nəzərdə tutulur. R.Səttarzadə artıq proqramın razılaşdırma prosesinin son mərhələsində olduğunu söyləyib. Nazirlik rəsmisi hesab edir ki, utilizasiya proqramı icra edildikdən sonra artıq avtomobil parkının yenilənməsi istiqamətində nəzərəçarpacaq nailiyyətlər əldə ediləcək.

# Polis sürücülərə xəbərdarlıq etdi

## Elməddin Muradlı: "Maddi zərərlərə düşmək istəmirlərsə, bu çağırışa diqqətlə əməl etməlidirlər"



Baş Dövlət Yol Polisi İdarəsi sürücülərə müraciət edib. Məlumatda qeyd olunur ki, "Bəzi yolların buz bağlama ehtimalının olmasını nəzərə alaraq, şinlərinin protektorundakı naxışların qalmış hündürlüyü normaların tələbinə (minik avtomobilləri üçün 1,6 mm-dən, yük avtomobillərində 1 mm-dən, avtobuslarda 2 mm-dən, motosiklet və mopedlərdə isə 0,8 mm-dən az olmamalıdır) uyğun olmayan nəqliyyat vasitələrinin istismarına yol verməsinlər.

Digər günlərə nisbətən nəqliyyat vasitələrinin sürüşmə ehtimalının daha çox olması baxımından sürücülərə hərəkət sürətini hava şəraitinə uyğun seçmələri, zərurət olmadan ötmə əməliyyatı aparmamaları, qəfil manevrlərə yol verməmələri tövsiyə olunur. Eyni zamanda, yola çıxmazdan əvvəl avtomobilin ban şüşələrini təmizləməklə şüşə silgəclərinin və şüşəyuyanların, habelə xarici işıq cihazlarının işlək vəziyyətdə olmasına əmin olmalı, mühərrikin soyuducu sisteminin və şüşəyuyanın donmayan mayelərlə təchiz olunmasını təmin etməlidirlər".

Baş DYP İdarəsi, həmçinin, qarlı, buzlu yollarda nəqliyyat vasitələrini idarə etmə vərdişləri olmayan sürücülərə də xəbərdarlıq edib. Belə ki, kəskin hava şəraitində sözügedən şəxslərin avtomobil idarə etmələrinin onların özləri və digər sürücülərin, piyadaların həyat və sağlamlığı üçün təhlükə olmasını nəzərə alaraq, həmin sürücülərin sükan arxasına keçməməsini tövsiyə edib.

Lakin bütün tövsiyə və xəbərdarlıqlara baxmayaraq maddi gəlirini və ən əsası, sağlamlığını təhlükəyə atanların da sayı az deyil.

**Məsələ ilə bağlı ekspert Elməddin Muradlı "Şərq"ə açıqlama verərkən nəzərə çatdırdı ki, belə məqamlarda sürücülərin əvvəlcədən xəbərdar edilməsi onların təhlükəsizliyi üçün nəzərdə tutulan mühüm addımlardan biridir:**

"Bu cür məqamlarda həm Baş Dövlət Yol Polis İdarəsi, həm də Bakı şəhər Dövlət Polis İdarəsinin sürücüləri əvvəlcədən xəbərdar etməsi çox yaxşı haldır. Bu xəbərdarlıq isə sürücülərin təhlükəsizliyi üçün nəzərdə tutulur. Söhbət ondan gedir ki, qarlı, şaxtalı havalarda yol-nəqliyyat hadisələrinin sayı artır. Bəzi sürücülər qeyri-peşəkarlıq nümayiş etdirərək belə havalarda da sürət həddinə əməl etmirlər. Hava və yol şəraitini nəzərə almayanda isə ağır nəticəli qəza hadisələri qeydə alınır. Təəssüf ki, burada ciddi xəsarət və ölüm halları da baş verir. Bu baxımdan, yol polisinin müraciəti əsaslandırılmış addımdır. Sürücülərin də bu xəbərdarlığı diqqətlə oxuması və nəzərə alması arzuolunandır. Mənə elə gəlir ki, qeyri-peşəkar, yeni avtomobil idarə etməyə başlayanlar və buzlu yollar görməyən sürücülər belə hava şəraitində sükan arxasına əyləşməsələr daha yaxşı olar. Biz Türkiyədə qarlı havadan sonrakı günlərdə nə baş verdiyini görürük. Yollarda çox ağır qəzalar baş verir. Nə qədər peşəkar sürücü olsalar da həmin situasiyadan çıxa bilmirlər. Bizim sürücülərin mental xüsusiyyətlərini nəzərə alsaq və hazırda araşdırma aparılsa, onların 90 faizinin maşınının təkəri heç qışa uyğun deyil. Hər bir halda hava şəraitinə baxıb ona uyğun davranmaq lazımdır. Əgər sürücülər maddi zərərlərə düşmək istəmirlərsə, bu çağırışa diqqətlə əməl etməlidirlər. Adətən, belə qəza hadisəsi baş verəndə sürücülər öz aralarında razılığa gəlib hərəsi öz maşınını düzəltdirir. Demək istəyirəm ki, bu, artıq xərcdir. Yəni nəzərə almaq lazımdır ki, qarlı və buzlu yollar ən azı 2-3 gün o şəraitdə qalır. Daha sonrakı mərhələdə əsas yollar təmizlənir. Aidiyyəti qurumlar məsələyə bir qədər geniş aspektdən yanaşıb məhəllədaxili yolları da təmizləyib vaxtında müəyyən tədbirlər görsə, düşülən vəziyyətdən çıxmaq mümkün olar. Hər bir halda son dərəcə diqqətli olmaq lazımdır. Qanunun da tələb etdiyi kimi meteoroloji havada yol şəraiti xüsusilə nəzərə alınmalıdır".

**Ağarza Elçinoğlu**

# Alıcı ilə satıcı birbaşa əlaqə saxlamır

**Ona görə internet üzərindən narkotikanın alveri ilə məşğul olanları yaxalamaq çətindir**



Sosial şəbəkələrdə narkotik maddələrin nəinki təbliğatı, satışı da təşkil olunur.
Narkotik maddə istifadəçilərinin, həmçinin satıcıların müxtəlif videolarının internet üzərindən yayılmasına qarşı hüquq-mühafizə orqanları mübarizə aparsa da, bir sıra çətinliklər də yaranır. DİN-in məlumatında bildirilir ki, daxili işlər orqanları tərəfindən cinayətkarlığın bütün forma və təzahürlərinə, eləcə də narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə diqqət mərkəzində saxlanılır.

Sosial şəbəkələrlə və digər internet informasiya resurslarından istifadə etməklə narkotik vasitələrin onlayn dövriyyəsi üzrə bir sıra faktlar əsasında şübhəli bilinən şəxslər əməliyyat yolu ilə tutularaq istintaqa təhvil veriliblər. Onlardan ümumilikdə 168 kiloqramdan artıq - 15 kiloqram 322 qram marixuana, 131 kiloqrama yaxın heroin, 10 kiloqram tiryək və digər psixotrop tərkibli, insan sağlamlığı üçün təhlükəli narkotik vasitələr götürülərək qanunsuz dövriyyədən çıxarılıb. Qeyd edilib ki, insan həyatını və sağlamlığını təhdid edən neqativ hallara qarşı daxili işlər orqanları tərəfindən bütün istiqamətlərdə kompleks profilaktiki tədbirlər davam etdirilir.

Amma internetin imkanlarından qanunsuzluq, cinayət xarakterli əməllərin təbliğatı üçün istifadə edənlər var təəssüf ki. Bəziləri "İnstagram" üzərindən paylaşımlar edir, narkotik maddələrin təbliğatını aparırlar. Müsbət olansa budur ki, bu cür əməllər hüquq-mühafizə orqanları tərəfindən aşkarlanır və buna cəhd edənlər müəyyənləşdirilərək zərərsizləşdirilir.

> "Təəssüf ki, texnologiyaların inkişafı cinayətkarlığın da inkişafına təkan verir. Cinayətkarlar da öz məkrli məqsədlərinə çatmaq üçün texnologiyanın verdiyi imkanlardan bəhrələnirlər"

**Polkovnik Mahmud Hacıyev "Şərq"ə açıqlamasında texnologiyaların inkişafının cinayətkarlığın inkişafına da yol açdığını dedi:**

- Təəssüf ki, texnologiyaların inkişafı cinayətkarlığın da inkişafına təkan verir. Cinayətkarlar da öz məkrli məqsədlərinə çatmaq üçün texnologiyanın verdiyi imkanlardan bəhrələnirlər. Hüquq-mühafizə orqanları cinayətkarlıqla mübarizə aparır, cinayətkarların yaxalanmasına nail olur. Amma bəzi çətinliklər də ortaya çıxır. Bu da əsasən onlayn satışla bağlıdır. Narkotiklərin internet üzərindən onlayn satışı ilk dəfə Rusiyada başlayıb. Rusiya hüquq-mühafizə orqanları da ilk vaxtlar cinayətkarları müəyyənləşdirməkdə çətinlik çəkirdi. Amma getdikcə texnoloji imkanlarla buna nail oldular. Azərbaycanda belədir. İlk vaxtlar bu cür cinayətkarları müəyyənləşdirmək çətin olsa da, artıq hüquq-mühafizə orqanları da bu sahədə peşəkarlaşıb. Onlayn satışda satanı müəyyənləşdirmək ona görə çətindir ki, alıcı ilə satıcı birbaşa əlaqə saxlamır. Alanı ifşa etmək həmişə asandır və bu, ikinci dərəcəli hesab olunur. Çünki alan, sadəcə alıcı olduğunu, asılılıq daşıdığını deyir. Əsas məsələ satanı ələ keçirməkdir. Alqı-satqı real şəkildə, birbaşa baş verdikdə, alanla birlikdə satan da ələ keçir. Onlayn satış zamanı isə alıcı satıcını tanımır. Onlayn sistemdə yalnız satış yeri, malın dəyəri göstərilir. Alan satanı tanımadığından ikincinin ələ keçirilməsi bir qədər çətin olur. Buna baxmayaraq hüquq-mühafizə orqanları səriştəli çalışır. Texnologiyanın inkişafının belə mənfi tərəfləri də var. Texnologiyanın inkişafı cinayətkarlığın metodlarını da dəyişir.

M.Hacıyev bildirdi ki, belə zərərli paylaşımlarla bağlı hüquq-mühafizə orqanları dərhal hərəkətə keçməli və cinayətkarların ifşa olunmasına çalışmalıdırlar:

- İnternet üzərindən narkotik maddə təbliğatı xüsusilə gənclərin, yeniyetmələrin əxlaqına, təlim-tərbiyəsinə mənfi təsir göstərən amildir. Hesab edirəm ki, Daxili İşlər Nazirliyi də, Dövlət Təhlükəsizlik Xidməti də dərhal hərəkətə keçib bu insanları aşkara çıxarmalı və bu işin arxasında hansı məkrli məqsəd dayandığını da müəyyənləşdirməlidir.

**Məlahət Rzayeva**

## İnsanların sağlamlığı əsasdır

Pandemiya dövründə çörək sexlərinə nəzarət daha da gücləndirilməlidir



**Qida Təhlükəsizliyi Agentliyi anti-sanitar qaydada fəaliyyət göstərən çörək sexinin fəaliyyətinin məhdudlaşdırılması ilə bağlı məlumat yayıb.**

Ağcabədi rayonu dörd yol ərazisində fəaliyyətini davam etdirən fiziki şəxs Mehdiyev Firidun Elşad oğlu adına çörək istehsalı müəssisəsində yoxlama zamanı müəssisənin qida təhlükəsizliyi qeydiyyatının olmadığı aşkarlanıb. Araşdırma nəticəsində məlum olub ki, çörək sexi sanitar-gigiyenik qaydalara və qida təhlükəsizliyinə dair normativ aktlara əməl edilmədən fəaliyyət göstərib.

**Mövzu ilə bağlı "Şərq"ə açıqlama verən Qida təhlükəsizliyi üzrə ekspert Elsevər Fərzəliyev bildirib ki, hər hansı bir müəssisədə müəyyən edilmiş standartlara cavab verməyən şəraitdə məhsul istehsal olunması insanların sağlamlığına zərər vura bilər:**

"Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq qida sənayesində fəaliyyət göstərən bütün müəssisələr mövcud tələblərə görə qida təhlükəsizliyi qeydiyyatından keçməlidir. Həmin prosesi həyata keçirmək o qədər çətin deyil. Sözügedən çörək zavodu təhlükəsizlik qeydiyyatından keçmədən, yəni qanunsuz olaraq fəaliyyətini davam etdirib. Bu qaydada fəaliyyət göstərən müəssisənin digər tələblərə əməl etməməsi də çox təəccüblü deyil. Qida müəssisəsində istehsal edilən bütün məhsullar təhlükəsizlik standartlarına uyğun olmalıdır. Hər şeydən öncə həmin məhsul üzrə standartlar tərtib olunur. Standartlara uyğun şərait olmadıqda məhsulların istehsalına icazə verilmir"

**Ekspert qeyd edib ki, pandemiya dövründə belə bir müəssisəsinin fəaliyyəti insanların sağlamlığı cəhətdən ikiqat təhlükəlidir:** "Hazırda bütün dünyada olduğu kimi, ölkəmizdə də pandemiya dövrü hökm sürür. Belə bir vəziyyətdə gigiyenik normalara uyğun olmayan bir müəssisənin çörək məhsulları istehsal etməsi koronavirus infeksiyasının yayılmasına bir daha şərait yaratmış olur. Tələb edilən normativ göstəricilərin təmin edilməməsi onu sübut edir".

**Aytac Ali**



## "Lotu Quli"nin məzarı üstündə atışma olub, 1 nəfər ölüb

Güllələnən şəxsin Əli Həşimov olduğu bildirilir

**İstanbulun Esenyurt rayonunda "Lotu Quli" ləqəbli kriminal avtoritet Nadir Səlifovun məzarı üstündə silahlı insident olub.**

APA-nın Türkiyə mediasına istinadən verdiyi xəbərə görə, silahlı insident nəticəsində bir azərbaycanlı başından güllələnib. Güllələnən şəxsin Əli Həşimov olduğu bildirilir. O, aldığı güllə yarasından hadisə yerində ölüb.

Onu vuran digər azərbaycanlı Kənan adlı şəxs isə xəstəxanaya çatdırılıb. Məlumata görə, hadisə borc üstündə baş verib.

Hadisədə şübhəli bilinən 3 nəfər saxlanılıb.

# Dələduzların tələsinə düşənlər prokurorluğa məlumat verməlidir

**"İstənilən halda kibercinayətkarlıqla məşğul olan şəxslər cinayət törətmiş hesab olunur"**



İnternet vasitəsilə alış-veriş zamanı dələduzluq hallarının sayı son vaxtlar artıb. Onlayn alqı-satqı səhifələrində yaxud saytlarda insanlar müxtəlif məhsulların satışını həyata keçirən zaman kiberdələduzların tələsinə düşür.

NRYTN-in verdiyi məlumata görə, bir qrup şəxs qeyri-qanuni yolla maddi vəsait əldə etmək məqsədilə "Azərpoçt" MMC-nin rəsmi saytına oxşar saxta saytlar açıb. Həmin şəxslərin hədəfi isə müxtəlif alış-veriş saytlarında onlayn alqı-satqı ilə məşğul olan insanlardır.

Dələduzlar alıcı qismində saxta "WhatsApp" nömrələrindən onlara yazıb, məhsulu almaq istədiyini söyləyir və ödənişin həyata keçirilməsi üçün satıcıdan "Azərpoçt" MMC-nin adına açılan saxta sayta daxil olmasını istəyir. Növbəti mərhələdə isə kart hesabı məlumatlarını tələb edir.

Vətəndaş bu keçidə daxil olaraq kart hesabının məlumatlarını təqdim etdikdə balansında olan vəsait kiberdələduzların əlinə keçir.

**Mövzu ilə bağlı "Şərq"ə danışan media hüququ üzrə ekspert Ələsgər Məmmədli deyib ki, kiberdələduzluqla məşğul olan şəxslər cinayət məsuliyyətinə cəlb edilməlidir:**

"Azərbaycan Respublikası qanunvericiliyinə əsasən istənilən halda kibercinayətkarlıqla məşğul olan şəxslər cinayət törətmiş hesab olunur. Buna görə də onlar cinayət məsuliyyətinə cəlb olunmalıdır. Əgər bu dələduzların tələsinə düşən insanlar varsa, həmin şəxslər mütləq şəkildə bu haqda prokurorluğa məlumat verib, şikayətlərini bildirməlidirlər. Bu zaman kibercinayətkarlıqla məşğul olan adamlar barəsində cinayət işi başlanılır. Əgər kiberdələduzlar ölkə xaricində bu fəaliyyət ilə məşğul olursa, yaşadıqları ölkənin hüquq-mühafizə orqanları ilə koordinasiya şəkildə onların müəyyən edilib məsuliyyətə cəlb olunması üçün müvafiq tədbirlər həyata keçirilir".

**Aytac Ali**

# Dodaq quruluğundan həkimə müraciət edənlərin sayı artıb



## Çarəsi var, yetər ki, düzgün diaqnoz qoyulub, müalicə olunsun

Dodaq quruması insanları narahat edən və ən sıx yaşanılan problemlərdən biridir. Dodaqlar quruduqdan sonra çatlayır və bu dodaqda qanamalara səbəb olur. Bəs dodaq quruluğu hansı səbəblərdən yaranır?

**Sualımızı cavablandıran dermatoveneroloq Mehdi İskəndərli "Şərq"ə açıqlamasında qeyd edib ki, dodaq quruluğu səbəbi ilə həkimə müraciət edən dəri xəstələrinin sayı olduqca çoxdur.** Həkim qeyd edib ki, quruluq şikayəti ilə müraciət edən xəstələrdə adətən dodaqların qabıq qoyması və qaşıntı əlamətləri, bəzilərində əlavə olaraq qızartı şikayətləri də olur: "Dodaq kənarlarında ağrılı çatlar quru dodaq problemi ilə üst-üstə düşə bilər. Belə xəstələrdə qidalanma zamanı dodaqlarda ağrı, yanma və göynəmə fonunda ümumi diskomfort hissinin yaranması mümkündür".

*Dermatologiya uzmanı vurğulayıb ki, dodaqların quruluğu bir çox ekzogen və endogen səbəbdən yarana bilər:* "Endogen səbəblər dedikdə daxili orqan və sistemlərin patologiyaları fonunda yaranan dodaq xəstəlikləri nəzərdə tutulur. Buraya qastroenteroloji, endokrinoloji, revmatoloji, onkoloji, psixiatrik, nevroloji və digər xəstəlikləri aid etmək olar. Dodaqda quruluq səbəbi həm də ekzogen faktorlara bağlıdır. Havada quraqlıq, günəşin ultrabənövşəyi şüaları, küləkli hava, soyuq hava, mexaniki təkrarlanan travmalar və s. aiddir".

**Dermatoloq qeyd edib ki, dodaq quruluğu həm də dəri xəstəlikləri səbəbi ilə də meydana gəlir:** "Bu cür dəri xəstəlikləri birbaşa quru dodaq problemi səbəbi rolunda iştirak edir. Ümumiyyətlə, dodaq xəstəlikləri bir çox hallarda dodaqlarla məhdudlaşır. Lakin bəzi dəri xəstəlikləri dodaq ətrafı sahələrdən və ağız boşluğundan başlayaraq dodaqlara da sirayət edə bilər. Dodaqların quruması problemi ilə bərabər dodaqlarda şişmə, irinləmə, eroziv yaralar, axıntı şikayətləri də ola bilər. Əgər bu əlamətlər yoxdursa, o zaman dodaq qurumasının daha bəsit səbəblərdən meydana gəldiyini düşünmək olar. Dodaqda quruluq səbəbi nə olursa olsun, bu problemin çarəsi var. Səbəb tapıldıqdan sonra hətta dodaq quruluğunun tam müalicəsi belə mümkündür. Dodaqların qurumasının hansı səbəbdən yarandığını müəyyənləşdirmək üçün dermatoloq xəstəni laborator, radioloji, bakterioloji, funqal və s. testlərdən keçirməlidir. Hətta ehtiyac olduğu təqdirdə dəri biopsiyası da alına bilər".

**Aynurə Pənahqızı**

# Revmatoid artrit - dərdini bilən azdır

## Bu xəstəlik tez-tez güclü stress, emosional sarsıntılardan sonra inkişaf etməyə başlayır

Revmatoid artrit ən çox yayılmış və ən ağır oynaq xəstəliklərindən biridir. Artrit müxtəlif yaşlarda inkişaf edə bilər. Lakin əsasən artrit 30 yaşından sonra inkişaf edir. Qadınlarda kişilərlə müqayisədə bu xəstəlik daha tez-tez inkişaf edir. Alimlərin məlumatlarına görə, revmatoid artrit əhalinin 1-2 faizində müşahidə olunur.



Xəstəliyin inkişaf etmə səbəbləri sona kimi araşdırılmayıb. Belə hesab olunur ki, xəstəliyin inkişafında irsiyyət müəyyən rol oynayır. Lakin əksər hallarda bu xəstəlik bir neçə mənfi amillərin - irsiyyət, stress, infeksiyanın təsiri nəticəsində inkişaf edir.

**Ortoped-travmatoloq Amir Bədəlov "Şərq"ə bildirib ki, revmatoid artrit autoimmun xəstəlikdir:** "Normada insanın immun sistemi hüceyrələri limfositlər orqanizmə düşən yad ziyanlı hüceyrələri (bakteriyalar, viruslar və s.) məhv etməlidir. Autoimmun xəstəliklər zamanı insanın immun sistemində pozulma yaranır ki, nəticədə immun hüceyrələri orqanizmin öz sağlam hüceyrələrinə hücum edir və onları məhv etməyə çalışır. Belə ki, revmatoid artrit zamanı limfositlər oynaq toxumasının hüceyrələrinə hücum edir.

Xəstəlik bir çox hallarda keçirilmiş qrip, tonzillit (angina), kəskin respirator infeksiyalardan sonra inkişaf edir. Bəzən travma və güclü soyuqlama da xəstəliyin inkişafına səbəb ola bilər".

**Həkim qeyd edib ki, revmatoid artrit tez-tez güclü stress, emosional sarsıntılardan sonra inkişaf etməyə başlayır:** "Xəstəliyin əvvəlində barmaq və bilək oynaqları iltihablaşır və şişir. İltihab hər iki əldə inkişaf edir.

Ödəmləşmiş oynaqlar güclü ağrılara səbəb olur. Ağrılar əsasən gecənin ikinci yarısında və səhərə yaxın güclənir, günortadan sonra azalır, axşama yaxın isə az hiss olunur. Xəstəliyin əvvəlində ağrılar aktiv hərəkətlərdən sonra azalır.

Sadaladığımız simptomlardan əlavə xəstədə zəiflik, iştahanın və yuxunun pozulması, hərarətin 38 dərəcəyə kimi qalxması, bəzən arıqlama kimi simptomlar inkişaf edir. Artrit inkişaf etdikcə barmaqlar və əllər deformasiya olunur (əyilir), bilək oynağının hərəkətliliyi kəskin azalır, əllərin qan dövranı pozulur ki, bunun nəticəsində dəri nazik, quru olur, əzələlər fəaliyyətdən qalır.

Vaxt keçdikcə artrit yeni və yeni oynaqları və həmçinin daxili orqanları (ürək, ağ ciyər, qara ciyər, böyrəklər, damarlar, bağırsaqlar), əzələləri zədələyir".

**Yeganə Bayramova**

## İmmunitetin möhkəmləndirilməsi üçün su qəbul edilməsi mühüm şərtdir



**Təkcə yeni növ koronavirus (COVID-19) infeksiyasına qarşı deyil, digər infeksion xəstəliklərə qarşı mübarizədə immunitet sisteminin güclü olması çox əhəmiyyətli rol oynayır.**

İmmunitet sistemi fərdi xarakter daşısa da, onun gücləndirilməsi mümkündür. Bu sahədə mövsümü meyvələrlə qidalanmaq və gün ərzində çoxlu maye qəbul etmək əhəmiyyətli rol oynayır.

**Həkim-terapevt Sübhan Hacıyev su qəbulu qaydaları barədə məlumat verərək deyib:** "Hər kəs öz bədən çəkisini 0,5-ə vurmaqla alınan rəqəmin onun mayeyə olan tələbatını öyrənə bilər. Məsələn, çəkisi 80 kiloqram olan insan gün ərzində 4 litr maye qəbul etməlidir. Yaxşı olar ki, onun 2 litri təbii su, qalanı isə qəbul edilən duru yeməklər, içilən çay və mayelərdən ibarət olsun. Ən azı mayenin 50 faizinin təbii su olması mütləq şərtdir".(azərtac)

"Lakin həddindən çox ifrata da varmaq olmaz, çünki su intoksikasiyası deyilən bir anlayış da var. Suyu qədərindən çox içmək ona qarşı ikrah hissi, ürəkbulanma yaradır və o yerə gəlib çıxır ki, su qəbul edilməsi tamamilə dayandırılır. Suyun yaratdığı köp, mədə-bağırsaq traktının pozulması, ishal və s. hallar olur. Ona görə də bunları nəzərə almaq lazımdır", - deyə həkim-terapevt əlavə edib.

## Koronavirusdan sağalanlar da maskadan istifadə etməlidir

### Vaksinasiya hər kəs üçün daha güvənli yol kimi nəzərdə tutulur



**Azərbaycanda COVID-19-a yoluxub sağalmış insanlar da qoruyucu maskadan istifadə etməlidir.**

Trend-in məlumatına görə, bunu Səhiyyə Nazirliyinin nəzdində fəaliyyət göstərən COVID-19-la mübarizə işçi qrupunun üzvü Günay Quluzadə deyib.

O qeyd edib ki, peyvənd olunduqdan sonra da maska və sosial məsafə qaydaları öz qüvvəsində qalmağa davam edəcək: "Çünki vaksinlər ilk dozada öz təsirini dərhal göstərməyə bilər. Yoluxmamaq və virusu yaymamaq üçün gigiyena qaydalarına bir müddət daha əməl olunacaq.

Xəstəliyə yoluxub sağalmış insanların yaranmış anticismləri uzun müddət yaşama qabiliyyətinə malik deyil. Yaranmış anticismlər xəstəliyi keçirən insanların orqanizmində eyni müddətdə qalmır. Anticismlərin yaşama müddəti xəstəliyi keçirmə ağırlığından asılıdır. Bu səbəbdən peyvəndlər daha güclü immunsistemi yaradacaq və vaksinasiya hər kəs üçün daha güvənli yol kimi nəzərdə tutulur".

**G.Quluzadə deyib ki, COVID-19 peyvəndi pandemiya ilə mübarizədə çox önəmli təsirə malikdir, ancaq normal həyata dönüş üçün biraz daha zamana ehtiyac olacaq:** "Çünki tam güvənli şəkildə normal həyatımıza qayıdış nə qədər insanın peyvənd olunub immunitet qazanacağına bağlıdır. Bu, zaman tələb edən bir dövrdür. Bu səbəbdən də maska və sosial məsafə qaydalarına müəyyən müddət riayət etməli olacağıq".

Baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu: Məlahət Rzayeva, Şeyman Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov
Texniki heyət: Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111
Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 141



## İstanbul hava limanı sərnişin sayına görə Avropada birinci olub

**Ötən ilin hesablamalarına əsasən, İstanbul hava limanı sərnişin sayına görə Avropada birinci olub. 2020-ci ildə bu aeroportdan ümumilikdə 23 milyon 409 min 132 sərnişin istifadə edib.**

*Qeyd edək ki, İstanbul hava limanı 2020-ci il iyulun 24-də Beynəlxalq Hava Limanları Şurası (ACI) tərəfindən ”Hava limanı sağlamlıq akkreditasiyası” proqramı çərçivəsində sertifikat alan ilk aeroport olub.*

## ABŞ-ın ən böyük torpaq sahibi odur

### Bill Qeyts 100 min hektardan çox ərazi alıb



**”Microsoft”un yaradıcısı Bill Qeyts 100 min hektardan çox ərazi alıb.**

Torpaq sahəsi ABŞ-ın 18 ştatını əhatə etməklə Vaşinqtondan Floridaya qədərdir. Bununla da Bill Qeyts ABŞ-ın ən böyük torpaq sahibi olaraq 132 milyard dollarlıq sərvətini artırıb. Milyonçunun mülkiyyətində olan torpağın 97,9 min hektarı kənd təsərrüfatı, 10,9 min hektarı isə digər istifadələr üçün nəzərdə tutulub.

## Baxış sayı durmadan artır

### Kenquru adi vətəndaş kimi təyyarə ilə səyahət edib



**ABŞ-ın Şimali Karolina əyalətindən Virciniya şəhərinə rəsmi icazəylə sərnişindaşıma təyyarəsi vasitəsilə kenqurunun uçuşu həyata keçirilib.**

”Şərq” xarici mediaya istinadən xəbər verir ki, Herri adlı kenqurunun təyyarədə çəkilmiş görüntüləri sosial media istifadəçiləri tərəfindən maraqla qarşılanıb.

Balaca kenqurunun ”American Airlines” təyyarəsinə minərkən çəkilmiş görüntüləri ”İnstaqram” səhifəsində çoxsaylı baxışa səbəb olub. Həmçinin təlimçinin müşayiəti ilə təyyarəyə minərkən Herrinin stüardessa Bobbi Veston tərəfindən fotoşəkil də çəkilib. Onun təyyarənin salonun baqaj bölməsində adi bir sərnişin kimi səyahət etdiyi müşahidə olunub.

*Qeyd edək ki, 2020-ci ilin fevralında da analoji hadisə baş verib. Belə ki, Fred adlı xidməti at da sərnişin kimi ilk uçuşunu həyata keçirib.*

**Aynurə**

## 2024-cü ilədək...

### Çin “Əşyalar interneti” üzrə ən böyük bazara çevriləcək



**Çin 2024-cü ildə ABŞ-ı geridə qoyaraq dünyada ”Əşyalar interneti” üzrə ən böyük bazar olacaq.**

Azərtac xəbər verir ki, ”International Data Corporation” tədqiqat agentliyinin məlumatına əsasən, 2024-cü ilədək Çinin ”Əşyalar interneti”nə xərcləri təxminən 300 milyard dollara çatacaq və yaxın 5 ildə ümumi orta illik artım tempi 13 faiz səviyyəsində saxlanılacaq.

*2024-cü ildə qlobal ”Əşyalar interneti” xərclərinin 26,7 faizi Çinin, 23,8 faizi ABŞ və 23,4 faizi Qərbi Avropanın payına düşəcək.*




# Sınaqdan da keçdi

## İsveçrəli mütəxəssislər virusu məhv edən maskalar hazırlayıblar



**Sürix Tətbiqi Elmlər Ali Məktəbinin tədqiqatçıları İsveçrənin ”Osmotex” şirkəti ilə birlikdə virusları məhv edə bilən və təkrar istifadəyə yararlı maska hazırlayıblar.**

Azərtac xəbər verir ki, tədqiqatçılar bu maskaları koronavirusa qarşı da uğurla sınaqdan keçiriblər. Alimlər maskanın funksiyasını izah edərkən bildiriblər ki, maska quruluşuna görə sendviç ilə müqayisə edilə bilər. Xüsusi tekstildən hazırlanmış maskanın içərisində izolyasiyalı membran təbəqəsi mövcuddur. Həmin membran təbəqəyə kiçik batareyadan aşağı voltlu elekrik gərginliyi ötürülür. Bu zaman meydana gələn reaktiv oksigen molekulları viruslarla təmasa girir və bir neçə dəqiqə içərisində virusları zərərsizləşdirir. Həmçinin bildirilib ki, maska virusların elektro-kimyəvi yolla sıradan çıxarılması ilə yanaşı, filtr funksiyası və virus hüceyrələrini passiv şəkildə zərərsizləşdirilməsinə xidmət edən ayrıca təbəqə ilə təmin olunub. ”MS2” bakteriofaqı adlanan viruslarla aparılan testlər zamanı alimlər elektro-kimyəvi tekstillərin 99 faizdən yuxarı olan antiviral təsirini müəyyən ediblər. Ona görə də bu maskanın SARS-CoV-2 virusuna qarşı tətbiqi tövsiyə olunub və yaz aylarında maska 25 İsveçrə franka satışa çıxarılacaq.

İndiyədək antiviral tekstil üçün sertifikatlaşma həyata keçirilmədiyinə görə alimlər bu material üçün standartlaşdırılmış patent sistemi üzərində iş aparırlar. Əgər bu materialın səmərəliliyi özünü doğruldarsa, gələcəkdə bu texnologiyanın ictimai nəqliyyatda oturacaqlar və qapı dəstəkləri üçün örtüklərin hazırlanmasında, eləcə də viruslarla təmasın məhdudlaşdırılmasının tələb olunduğu digər sahələrdə tətbiqi mümkün ola bilər.

## Zəhərli deyil, amma sürətlidir

### Türkiyədə yeni ilan növü aşkarlanıb





**Türkiyədə yeni ilan növü kəşf edilib. ”Şərq” Türkiyə mətbuatına istinadən xəbər verir ki, üç il əvvəl universitet daxilində aparılan bioloji tədqiqat zamanı müəllimlər ilanın yeni növünü aşkar edərək, onu elm dünyasına gətiriblər.**

Sürətinə görə ”yarışçı” adlanan yeni ilan növləri Hakkaridə aşkarlanıb. Sürəti ilə digər növlərdən fərqli olduğu təyin olunan bu ilan növü ədəbiyyata ”Platyceps rhodarachis” adı ilə daxil edilib. Hakkari Universiteti müəllimi Can Yılmaz ”Platiseps” cinsinə aid olan və əvvəllər 3 növü görülən, bunun ilan cinsinin dördüncü növü olduğunu qeyd edib. O, yeni növlərlə qarşılaşma ehtimalının yüksək olduğunu da vurğulayıb. Zəhərli ilan olmadığına diqqət çəkən Yılmaz əlavə edib ki, əvvəllər şəhər mərkəzində yeni hörümçək və çəyirtkə növləri də təsbit edib. O həmçinin bu ilan növünün əvvəllər İran və İraqda mövcud olduğuna diqqət çəkib: ”Ola bilsin ki, Hakkari İran və İraqla qonşu olduğundan iki ölkənin herpetofauna üzvlərinə sahib olma ehtimalı var”.

**Aynurə**

## Leonardo da Vinçinin oğurlanan əsəri tapılıb



**İtaliyada dünya şöhrətli rəssam Leonardo da Vinçinin bir neçə il əvvəl Müqəddəs Dominik Neapolitan Bazilikasından oğurlanan ”Dünyanın xilaskarı” adlı rəsm əsəri tapılıb.**

Axşam.az xəbər verir ki, italyan rəssamın ən bahalı əsərlərindən biri olan tablo 2019-cu ildə Neapol şəhərində oğurlanmışdı. ”Dünyanın xilaskarı” oğurlandığı yerin yaxınlığındakı şəxsi evdə tapılsa da, 36 yaşlı ev sahibinin cinayətdə iştirak etməsi sübuta yetirilməyib.

Hazırda polis oğruları axtarır. Ehtimallara görə, XV əsrə aid olduğu bildirilən rəsm əsərinin xarici ölkələrə satılması planlaşdırılıb. Lakin koronavirus pandemiyası bu planları alt-üst edib.